УДК 1 (09)
KBT 86.4

*Səadət ŞIXIYEVA*[*]

*AMEA, Ak.Z.Bünyadov ad.
Şərqşünaslıq İnstitutu*

# Hürufiliyin tarixi: ənənəviləşmiş təhriflər, unudulan gerçəkliklər...

***Xülasə***

*Məqalədə Şərq fəlsəfi düşüncə tarixində mühüm bir yerə sahib olan hürufiliyin öyrənilməsində nəzərə çarpan ənənəviləşmiş yanlışlar təhlil edilir. İndiyədək hürufiliyin fəlsəfi bir təlim və siyasi məqsədli hərəkat kimi fəaliyyəti, məram və məqsədləri və s.-nin bəzi aspektləri təhrifli şəkildə təqdim olunmuşdur. O yanıltmalar içərisində hürufiliyin bir təlim olaraq leqal fəaliyyətə başlaması, Fəzlullahın sağlığında və onun edamından sonra hürufilərin siyasi iqtidarlarla ittifaqa girmə cəhdləri və s.-nin dəyərləndirilməsi də yer alır. Bu məqalədə haqqında bəhs etdiyimiz həmin təhriflər, onların yaranmasına təkan verən qaynaqlar, tarixi hadisələri yanlış anlamalar və s. dəyərləndirilərək, tarixi gerçəkliklərin üzə çıxarılmasına cəhd edilir. Məqalədə hürufilik mətnləri əsasında bir neçə mübahisəli məsələnin aydınlaşdırılmasına xüsusi diqqət yetirilir.*

*Bundan başqa, məqalədə hürufi üsyanları ilə əlaqədar faktlar təfərrüatlı öyrənilərək təhriflə gerçəkliyin sərhədləri müəyyənləşdirilmiş, xüsusilə Şahruxa suiqəsdlə bağlı ziddiyyətli məqamlar təhlilə cəlb edilir. Bu araşdırmalar nəticəsində təkcə hürufiliyin tarixi ilə bağlı bir sıra hadisələrin gedişatı, səbəb və nəticələrində təhriflərin olması deyil, həm də bir sıra qaynaq və araşdırmalarda haqqında bəhs olunan bəzi şəxslərin uydurma olması da üzə çıxarılır.*

---

[*] Filologiya üzrə fəlsəfə doktoru, shikhiyevas@gmail.com.

[1] 1780-1789-cu illərdə alman filosofu F.H.Jacobi (1743-1819) tərəfindən təşkil edilən "Panteizm disputları" (Pantheism controversy) nəticəsində fəlsəfi ədəbiyyata daxil olan spinozizm termini altında ümumilikdə, B.Spinozanın fəlsəfi sistemi nəzərdə tutulur: Goetschel W. Spinoza's Modernity: Mendelssohn, Lessing, and Heine. Wisconsin: The University of Wisconsin Press, 2004. Alman klassik fəlsəfəsinin nəhənglərindən hesab olunan G.V.F.Hegel (1770-1831) isə, spinozizmi akosmizm (laməkan) kimi başa düşürdü: Hegel G.W.F. *Lectures on Logic*. Bloomington: Indiana University Press, 2008, s. 49.

***Açar sözlər:*** *hürufilik, təlim, tarix, üsyan, təhrif, gerçəklik*

## *Giriş*

İslam Şərqinin fəlsəfi düşüncə tarixində mühüm bir mövqeyə sahib olan hürufilik təlimi ilə bağlı istər Qərb, istərsə də Şərq alimlərinin araşdırmalarında müəyyən anlamda ənənəviləşmiş bir sıra qənaətlər mövcuddur. Lakin hürufilik qaynaqlarına müraciət etdikdə bu məsələlərdən bir qisminin fərqli ifadə və inikasına rast gəlirik. Qeyd etməliyik ki, hürufi müəlliflərin əsərlərindən təlimin təkcə fəlsəfi-dini görüşləri deyil, tarixi ilə bağlı bəzi məlumatları da əldə etmək mümkündür və bu qaynaqların həmin çevrələrdə qələmə alınması onları daha etibarlı mənbə saymağa əsas verir. Hürufilik mətnləri təkcə bu fəlsəfi-fikri axının tarixi deyil, həm də təlimin bu və ya digər dərəcədə bağlandığı ölkələrin (Azərbaycan, İran, Türkiyə, Suriya, Misir, Özbəkistan və s.) siyasi tarixi ilə əlaqəli bir sıra məlumat və faktlar baxımından da əhəmiyyət kəsb edir.

Hürufiliyin XIV-XV əsrlərdə yaşamış nümayəndələrinin (Fəzlullah, Nəsrullah Nafəci, Əliyyül-Əla, Seyid İshaq, Əmir Qiyasəddin və başqaları) əsərləri bu təlimin yaranması, fəaliyyəti, yayıldığı coğrafiya, nüfuz etdiyi siyasi çevrələr, o cümlədən tarixini öyrənmək baxımından daha mötəbər qaynaqlar sayılır. Bir sıra tədqiqatçılar hürufiliklə əlaqədar problemləri araşdırarkən bu qaynaqlara müraciət etsələr də, təlimin tarixi ilə bağlı bəzi əhəmiyyətli məsələlər ya diqqətdən kənarda qalmış, ya da təhrif olunmuşdur. Qeyd etməliyik ki, çağdaş araşdırıcıların tarixi gerçəklik kimi qəbul etdiyi bəzi ənənəviləşmiş və qəliblənmiş yanlış mülahizələrin çoxu orta çağ tarix kitablarından qaynaqlanır. Problemin araşdırılması nəticəsində belə bir qənaətə gəldik ki, hürufiliyin tarixinə aid bir sıra məlumatlar orta əsrlər müəlliflərinin əsərlərində ifadəsini tapdığı üçün onların isbatı və ya təhlilinə ehtiyac olmadığı düşünülmüşdür. Halbuki ilkin hürufilik qaynaqları ilə müqayisə orta çağ tarixçilərinin bu təlimlə bağlı bəzi hadisə və faktları təqdimində təhriflərə yol verməsi və ya məlumatının natamamlığını üzə çıxartdı. Burada hürufilik mətnləri əsasında bu geniş bəhsdən bir neçə məqama diqqət yetirəcəyik:

- hürufilik təliminin mərhələli *"zühur"*u;
- fəlsəfi-dini bir təlim kimi tarix səhnəsinə çıxan hürufiliyin siyasi fəaliyyətə yönəlməsinin gerçək səbəbləri;

- hürufilərin siyasi iqtidar sahibləri ilə münasibətləri;
- Fəzlullahdan sonra hürufilərin coğrafi məkan seçimindəki məramı və mühacirətinin şəkli;
- hürufi sui-qəsdləri ilə bağlı təhriflər və s.

## *1. Hürufiliyin elanı ilə bağlı mübahisəli tarixlər*

Araşdırmalarda hürufiliyin bir fəlsəfi cərəyan kimi fəaliyyətə başlamasının tarixi olaraq, müxtəlif illər – h. 775 / m. 1373-1374[1], h. 778 / m. 1376-1377[2], h. 800 / m. 1397-1398[3] və s. göstərilməkdədir. Ümumilikdə h. 788 / m. 1386-1387-cı ilin hürufiliyin elanı tarixi kimi qeyd olunmasına daha çox rast gəlinir.[4]

Əslində bu tarix fərqliliyinin qaynağı hürufi mətnləridir. Fəzlullahın seçilmiş xəlifəsi (*“xəlife-ye bərqozide”*) olaraq tanınan Əliyyül-Əlanın *“Kürsinamə”*sindən hürufiliyin zühurunun mərhələli xarakterliliyi qənaəti hasil olur. Bu tarix çeşidliliyi və onun səbəbinə, eləcə də təlimin fəaliyyətinin istiqamətləri, məram və məqsədləri ilə bağlı bəzi mülahizələrdə uyğunsuzluq və ziddiyyətlərin mövcudluğuna digər araşdırıcılar diqqət yetirməmişlər.[5] Bir sıra araşdırmalarda isə müqayisə və təhlil

---

[1] صادق كيا. واژه نامه گرگانی (تهران: انتشارات دتنشگاه تهران، 1330 ه) ص. 289 ، 292.

[2] صادق كيا. واژه نامه گرگانی، ص. 289، 292؛

Зумруд Кули-заде. Хуруфизм и его представители в Азербайджане (Баку: Элм, 1970), s. 92.

[3] bax:

رضا توفيق. "پژوهشی در انديشه های حروفيه،" زندگی و اشعار عمادالدين نسيمی، به كوشش يدالله جلالی پنداری (تهران: نشر نی، 1993)، ص. 49-50؛ ادوارد براون. "نوشته های حروفی، ترجمه عطاالله حسنی،" فرهنگ ايران زمين (تهران، 1365)، جلد 26، ص. 219.

Зумруд Кули-заде. Хуруфизм и его представители в Азербайджане, s. 92.

[4] *“Kürsinamə”*də dolayısı ilə, *“İstivanamə”*nin nüsxələrindən birində isə açıq bir şəkildə 1386-cı ilin hürufilik təliminin elanı tarixi kimi qeyd edilməsi (Hurufilik Metinleri Katalogu. Hazırlayan: Abdülbaki Gölpınarlı (Ankara: Türk Tarih Kurumu Basımevi, 1989), s. 3) bu barədəki qənaətləri qətiləşdirmişdir. Bu barədə bax: Fatih Usluer. Hurûfilik-İlk Elden Kaynaklarla Doğuşundan İtibaren (İstanbul: Kabalcı Yayınları, 2009), s. 39;

هلموت ريتر. "آغاز فرقه حروفيه،" فرهنگ ايران زمين (تهران، 1341 ه.)، جلد دهم، ص. 350؛ صادق كيا. واژه نامه گرگانی، ص. 292.

[5] Hürufiliyin tarixi ilə bağlı mübahisəli məsələlər və təlimin nümayəndələrinin fəaliyyətinin xarakterinə bəzi tezis və məqalələrimizdə münasibət bildirmişik: Səadət Şıxıyeva. “Hürufilərin siyasi mübarizə tarixindən,” Dil və ədəbiyyat, 3 (1998), s. 126-129; Yenə onun: “Hürufi müəlliflər Qaraqoyunlular haqqında,” Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları (akad. Vasim Məmmədəliyevin 70 illiyinə həsr olunmuş konfransın materialları) (Bakı, 27-28 iyun 2013), s. 429-443; Yenə onun: “Hurufi Ayaklanmaları,” XVI. Türk Tarih Kongresi. 3. Cilt. Selçuklu Devleti ve Beylikler Dönemi. (20-24 Eylül 2010, Ankara).

olunmadan yuxarıda qeyd etdiyimiz tarixlərdən yalnız birinə istinad olunmuşdur. Halbuki ilkin hürufilik qaynaqları əsasında Fəzlullahın həyatı ilə bağlı faktları təhlil etdikdə bu fəlsəfi cərəyanın aşkara çıxmasının bir neçə mərhələdə baş verməsi, hər dəfə təlimin fərqli və önəmli bir cəhətinin vurğulanması bəlli olur. Belə ki, Fəzlullahın yuxu yozuculuğu onun qiyamının ilk mərhələsi hesab olunur.[1] Digər tədqiqatçıların diqqətini cəlb etməyən cəhətlərdən biri də Fəzlullaha ilk qiyam dəvətinin Xarəzmdə olunması[2], hərf elminin Təbrizdə dərk edilməsidir.[3]

Öncə də qeyd etdiyimiz kimi, hürufilik mətnlərində təlimin elanı (hürufilərə görə, *"zühur"*u) ilə bağlı çeşidli tarixlər göstərilmişdir. Belə ki, *"Kürsinamə"*nin haşiyələrindən birində Fəzlullaha mövcudatın sirrinin h. 775-ci il şaban ayının 14-də (29 yanvar 1374-cü il) açılması yazılmışdır:

اول تاریخ که هست موجودات که قوام اشیا باوست بر ضمیر منیر حضرت ف رب العالمین نزول کرد آخر ماه مبارک شعبان المعظم که هم چهارده است سال بر هفتصد و هفتاد و پنج[4]...

*(Əşyanın nizamını (mümkün edən) mövcudatın varlığının (sirrinin) həzrət Fəzlullah rəbbül-aləminin nurlu qəlbinə nüzul etdiyi ilk tarix 775-ci ilin mübarək şəbanül-əzim ayının 14-ü idi).*

*"Kürsinamə"*nin mətnində isə hürufiliyin ilk öncə Quranın sirri olaraq h. 778 / m. 1376-cı ildə Fəzlullaha açılması və *"Cavidannamə"*nin h. 788/ 1386-cı ildə qələmə alınması bildirilir:

چون ز فضل اسرار قران فاش گشت      بود هجرت هفتصد و هفتاد و هشت
اصل ایشان بود دو کرد آن مزید      تا دلیل دیگر آید زآن [پد] ید

---

Kongreye Sunulan Bildiriler. (Ankara: Türk Tarih Kurumu, 2015), s. 177-234; Yenə onun: "Hürufiliyin tarixi ilə bağlı bir sıra qəlibləşmiş yanlışlar," Türk dünyası: dünəni və bu günü (beynəlxalq elmi konfrans), Tezislər (Bakı, 23-24 may, 2011), s. 82-87.

[1] هلموت ریتر. "آغاز فرقه حروفیه،" ص. 339.

[2] Bu barədə bax: هلموت ریتر. "آغاز فرقه حروفیه،" ص. 347.

[3] H.Ritter Nəsrullah Nafəcinin *"Xabnamə"*si əsasında bu faktları qeyd etmişdir. (هلموت ریتر. "آغاز فرقه حروفیه،" ص. 347). Lakin nə Ritter, nə də ondan sonrakı müəlliflər bu qeydlərdə hürufiliyin mərhələli zühurunun ifadəsini tapmasına diqqət yetirməmişlər.

[4] صادق کیا. واژه نامه گرگانی، ص. 289.

Qeyd etməliyik ki, H.775-ci, eləcə də h. 788-ci illərdə Fəzlullahın Təbrizdə olması barədəki qeydlər onun bu şəhərlə əlaqəsinin uzun müddət davam etdiyini göstərir. Halbuki bu qeydlər Rza Tofiqin hürufi müəlliflərdən Əliyyül-Əlaya istinadla söylədikləri ilə ziddiyyət təşkil edir. Tanınmış filosofa görə, hürufilik Təbrizdə elan olunsa da, bu təlimin nümayəndələri təbrizlilərin rəğbətini qazana bilməyərək, qısa müddət sonra oranı tərk etməyə məcbur olmuşdular.

(توفیق، رضا. "پژوهشی در اندیشه های حروفیه،" ص. 50-51)

چون بفعل آمد ز قوه نطق حق    خواستند گیرند ازو هر کس سبق
چون کتاب اصل آمد از قلم    بود هجرت صاد (ضاد) باز از وی دو کم
بیست و یک را گر نهادی در شمار    ضاد و طی باشد کز و شد آشکار[1]

*(Fəzlullahdan Quranın sirləri ortaya çıxanda*
*Hicrətin yeddi yüz yetmiş səkkizinci (ili) idi.*
*Onların əsli iki idi, o, onları çoxaltdı,*
*Ondan başqa bir dəlil ortaya çıxdı.*
*Tanrının nitqinin gücündən hərəkətə gəldiyindən*
*Ondan hər kəs dərs almaq istədi.*
*Həqiqi kitab*[2] *qələmdən gələn gün*
*Hicrətin "sad"ı*[3] *idi, yenə də ondan iki kəm.*
*İyirmi biri əgər hesaba alsan,*
*Ondan aşkar olan "zad"ü "tey" olur).*

H.Ritterin doğru olaraq qeyd etdiyi kimi, Əliyyül-Əla *"Həqiqi kitab qələmdən gələn gün // Hicrətin "sad"ı idi, yenə də ondan iki kəm"* deyərkən h. 788 / m. 1386-cı ili nəzərdə tutur. [4] Belə ki, *"sad"* əbcəd hesabı ilə "90"-a bərabərdir və ondan "2" əksik olanda 88 olur. Daha sonra sanki bu tarixin sual doğuracağından ehtiyat edən Əliyyül-Əla eyni tarixi başqa bir şəkildə dilə gətirərək və deyir: *"İyirmi biri əgər hesaba alsan // Ondan aşkar olan "zad"ü "tey" olur"*. *"Zad"*ın əbcəd hesabı ilə 800-ə və *"tey"*in 9-a bərabər olduğunu nəzərdə tutaraq, ondan (809) 21 sayını çıxdıqda 788 alınır.

Əliyyül-Əlanın *"Kürsinamə"*sinin mətni və haşiyəsində xüsusi vurğu ilə diqqətə çatdırılan tarixlərin təhlili birinci mərhələdə (h. 775 / m. 1373) Fəzlullaha mövcudatın sirrinin, ikinci mərhələdə (h. 778 / m. 1376) hərf elminin bəlli olmasını və nəhayət, üçüncü mərhələdə (h. 788 / m. 1386) bu təlimin artıq elan olunduğunu aşkara çıxarır. İndiyədək araşdırıcıların diqqət etmədikləri bu tarix çeşidliliyi hüru-

---

[1] صادق کیا. واژه نامه گرگانی، ص. 292 .

[2] *"Cavidannamə"* nəzərdə tutulur.

[3] Mətndə *"sad"* yazılsa da, S.Keya ona mötərizə daxilində *"zad"* olaraq düzəliş vermişdir. (صادق کیا. واژه نامه گرگانی، ص. 292) Amma mətndən göründüyü kimi, Əliyyül-Əla hər iki hərfi onların say dəyərini (90 və 800) nəzərdə tutmaqla istifadə etmişdir.

[4] هلموت ریتر. "آغاز فرقه حروفیه،" ص. 350.

Bu, *"Cavidannamə"*nin yazıldığı ildir. Araşdırmalarda *"Cavidannamə"*nin h. 788-də (m. 1386) yazılmağa başlanıldığı (هلموت ریتر. "آغاز فرقه حروفیه،" ص. 350)، amma davamlı olaraq ona əlavələr edildiyi bildirilir (Fatih Usluer. Hurûfilik-İlk Elden Kaynaklarla Doğuşundan İtibaren, s. 48).

filiyin passiv və aktiv fəaliyyət tarixi kimi dəyərləndirilə bilər. Başqa sözlə, 1373-cü ildə mövcudatın, 1376-cı ildə elmi-hürufun sirlərinin ona açıldığını bildirən Fəzlullahda bu görüşlər sadəcə ideya şəklində mövcud olmuşdur. Təlimin bir sıra obyektiv və subyektiv düşüncələrdən qaynaqlanan elanı isə artıq onun təqribən 10 il boyunca özünə kifayət qədər tərəfdar topladığı və bu görüşlər üçün ideoloji və ictimai zəmin hazırlamasından sonraya təsadüf edir.

Bu mərhələliliyə diqqət yetirilməməsi, hürufiliyin aşkara çıxdığı tarix kimi sadəcə yuxarıda qeyd etdiyimiz illərdən birinin göstərilməsi isə təlimin formalaşmasının özəlliyi haqqında natamam təsəvvür yaratmışdır.

## 2. *Fəzlullahın sağlığında hürufi-Teymuri münasibətləri*

Hürufiliklə bağlı özünə dərin kök salmış yanlış mülahizələrdən biri də bu təlimin yaranması səbəbinin izahı ilə əlaqədardır. Bu fəlsəfi-fikri axın haqqında ənənəviləşmiş qənaətlərdən biri onun antifeodal xarakterliliyi və Əmir Teymurun Təbrizə yürüşünə qarşı etiraz dalğası kimi meydana çıxmasıdır.

Hürufiliyin ilk illərdə, daha doğrusu, Fəzlullahın sağlığındakı fəaliyyətinin özəlliklərinin nəzərə alınmaması və hürufi-Teymuri münasibətlərinin kəskin ixtilafa çevrilməsinin səbəblərinin təfərrüatlı araşdırılmaması hürufiliyin anti-Teymuri, hətta ümumiyyətlə, antifeodal hərəkat olması[1] iddiasına yol acmışdır. Halbuki ilkin hürufilik mətnləri əsasında bu təriqətin banisi Fəzlullahın siyasət adamları ilə münasibətinin izlənməsi hürufiliyin antifeodal xarakterliliyi ilə bağlı mülahizələrin tarixi gerçəkliyə uyğun olmadığı qənaətinə gətirir. F.Usluerin haqlı olaraq qeyd etdiyi kimi, Fəzlullaha röya təvil etdirən şəxslər arasında xüsusilə dövlət adamları və dövrün alimləri diqqəti çəkməkdədi.[2] Belə ki, ilkin qaynaqlardan Fəzlullahın Sultan Üveys Cəlayiri[3] və saray adamları, o cümlədən onun vəziri Zəkəriya, sahib-sədr Şeyx Xacə[4] kimi yüksək rütbəli dövlət adamları ilə ünsiyyətinin olması məlum

---

[1] Зумруд Кули-заде. Хуруфизм и его представители в Азербайджане, s. 38-41;
حسين اولدوز. "حروفيه و نسيمى،" ديوان نسيمى (تبريز: موسسه انتشارات ياران، ب.ت)، ص. 10-13؛
على مير فطروس. جنبش حروفيه و نهضت پسيخانيان (نقطويان)، (تهران: انتشارات بامداد، 1327)، ص.37
və s.)

[2] Fatih Usluer. "Hurufilikte Rüya Tabirleri," Millî Folklor, 90 (2011), s. 143.

[3] Sultan Üveysin adı Fəzlullahın *"Növmnamə"*sində də çəkilir. (bax:
فضل الله استرآبادى. جاودان نامه كبير (م.ک. على اميرى، فارسى، شماره 920)، و. 408.

[4] Şeyx Xacə, ehtimal ki, *"Növmnamə"*də adı Şəh Xacə şəklində qeyd olunan və Sultan Üveysin məktub yazdığı bildirilən şəxsdir. ( فضل الله استرآبادى. جاودان نامه كبير، و. 408. )

olur.[1] Nəsrullah Nafəci *"Xabnamə"*sində ümumi şəkildə üləma və sərvət sahiblərinin Fəzlullahla həmsöhbət olduğunu, onun xidmətində durduğunu və taxt sahiblərinin hürufi mürşidinin etimadını qazandığını bildirir.[2] Seyid İshaqın *"Məhrəmnamə"*sindən məlum olduğu kimi, Həsən Damğaninin oğlu[3], bir müddət Xorasan valisi və Sultan Üveys Cəlayirinin yaxınlarından olan Əmir Əli Damğani[4] sonralar xidməti tərk edərək, Fəzlullahın müridi olmuşdu.[5] Nəsrullah Nafəci İsfahanda Tuğçi məscidində ikən Fəzlullahın yanına din alimləri (*"uləma"*), seyidlər (*"sadat"*), böyüklər (*"əkabir"*), əmirlər, vəzirlər və qazılardan bir çox insanın gələrək röya təbir etdirdiklərini bildirir.[6] Nəsrullah Nafəcinin *"Xabnamə"*sində həmin sosial zümrələrə aid şəxslərin röyalarını ehtiva edən örnəklər olmasa da, Seyid İshaq və Firiştəoğlunun[7] eyniadlı əsərlərində həmin şəxslərin röyalarından örnəklər verilmişdir: Səbzəvarın hakimi Xacə Fəzlullah, Timurun əmiri, Kaverd qalası valisi Əmir Bistam, Sultan Üveysin vəziri Əmir Zəkəriyya, Şirvan valisi Əmir Şeyx İbrahim[8], Qazı Bayəzid Şamaxı[9], Əmirzadə Məhəmməd Qəndəhari, Məşhəd naqibi Seyid Əbdülheyy, Səbzəvar valisi Xacə Cəmaləddin, İsfahanda mühtəsib, Sultan

---

[1] bax: Hurufilik Metinleri Katalogu, s. 6; Fatih Usluer. "Hurufilikte Rüya Tabirleri," s. 140-141, 143.

[2] نصر الله نافجی. خوابنامه (Biblioteca Vaticana Persiano 17)، و. 20

[3] Pəhləvan Həsən Damğani Sərbədari (762/1361-766/1365) və onun yerinə keçən Xacə Nəcməddin Əli Müəyyəd Sərbədari (766/1365-788/1386) nəzərdə tutulur.

[4] H.Rittərə görə, bu, sərbədari xanədanının sonuncu nümayəndəsi olan Əmir Əli Müəyyəddir. (هلموت ريتر. "آغاز فرقه حروفيه،" ص. 374-375)

Həmin şəxsin adının Xacə Əli Müəyyəd (Musa Şamil Yüksel. Timurlularda Din-Devlet İlişkisi (Ankara, Türk Tarih Kurumu Basımevi, 2009), s. 110) şəklində verilməsinə də rast gəlinir. Qeyd etməliyik ki, Əmir Teymur dövründə öldürülən Əmir Əli Müəyyəd ilə Şahrux zamanında üsyan qaldıran sərbədari Sultan Əli ayrı-ayrı şəxslərdir. (Əmir Əli Müəyyəd barədə bax: Musa Şamil Yüksel. Timurlularda Din-Devlet İlişkisi, s. 110; Василий Владимирович Бартольд. Сочинения (Москва: Наука, 1964), т. 2, часть 2, s. 84-85;

(يعقوب آژند. حروفيه در تاريخ (تهران: نشر نی، 1369)، ص. 17.

[5] مجموعه رسائل حروفيه (ليدن، 1909)، ص. 43. bax: Hurufilik Metinleri Katalogu, s. 15.

[6] نصر الله نافجی. خوابنامه، و. 17.

[7] Fəriştəoğlunun *"Xabnamə"*si Seyid İshaqın eyniadlı əsərinin tərcüməsidir. (bu barədə bax: Fatih Usluer. Hurûfilik-İlk Elden Kaynaklarla Doğuşundan İtibaren, s. 90; Hurufilik Bilgisi. Ferişteoğlu Abdülmecid Külliyatı. Hazırlayanlar: Fatih Usluer, Özer Şenödeyici, İsmail Arıkoğlu (Ankara: Gece Kitaplığı, 2014), s. 263-272).

[8] Bu şəxsin əslində Şirvanşah İbrahim olması qənaətindəyik.

[9] F.Usluer bu ifadəni "Şimahi" şəklində (Fatih Usluer. "Hurufilikte Rüya Tabirleri," s. 143) versə də, ifadənin əsli Şamaxı (orta əsrlərdəki adlarından biri: Şəmaxi(yyə)) olmalıdır. Y.Ajənd Qazı Bayəzidin adının Fəzlullahın *"Növmnamə"*sində Xacə Bayəzid şəklində yad edildiyini və onun Şirvanşah Şeyx İbrahimin qazısı olduğunu bildirir.

(يعقوب آژند، حروفيه در تاريخ، ص. 24)

Əhmədin qaynı Cəllad Xan Rumi, Teymurun cariyəsi, İraq üləmasının öndə olanlarından[1] Dərviş Rəis[2] Xacə Sədrəddin (Mövlana Sədrəddin Türkih)[3], Təbriz üləması böyüklərindən Mövlana İzəddin Halvayi və başqaları.[4] Ə.Gölpınarlı ilkin hürufilik qaynaqlarına istinadən Sultan Üveysin Fəzlullahın məclislərində iştirakından, eləcə də hürufi mürşidinin ona təbərrük olaraq dərviş külahı verməsindən də bəhs edir.[5]

Bu faktlar, göründüyü kimi, Fəzlullahın siyasi çevrələr və saray mühitində nüfuza malik olduğunun inkarolunmaz göstəriciləridir.

Fəzlullahın öz əsərlərinin də bu baxımdan araşdırılması maraq doğuran nəticələrə gətirdi. Belə ki, *"Növmnamə"*də yer alan bir yuxusunun nəqlində Fəzlullah Əmir Teymurun onlarla birlikdə namaz qıldığını, yəni dolayısı ilə hürufilərlə həmfikir olduğunu bildirir. Bu yuxu hürufi mürşidinin o cahangirin himayəsinə ümidinin ifadəçisidir:

---

[1] Nəsrullah Nafəcinin *"Xabnamə"*sində Sədrəddin Torke "alimlərin fəzilətlisi" adlandırılır. ((نصر الله نافجی. خوابنامه، ص. 32)

[2] Rəis adına Fəzlullahın *"Vəsiyyətnamə"*sində bir neçə dəfə rast gəlinir. (Abdülbaki Gölpınarlı. Fazlullah-ı Hurûfinin Vasiyyat-nama'si veya Vasayası, İstanbul Ünversitesi Edebiyat Fakültesi Şarkiyat Mecmuası, II (1958), s. 54-57, 59) Maraqlıdır ki, bu ad Rəis, Dərviş Rəis, Rəis Mahmud şəkillərində yad olunur. Mətndən bu adların eyni bir şəxslə əlaqəliliyi qənaəti hasil olur. Mahmud Rəis barədə bax: Clément Huart. Textes persans relatifs à la secte des Houroûfîs (Leyden-London, 1909), s. 87, 216, 217;

مجموعه رسائل حروفیه، ص. 54.

Ümumiyyətlə, qeyd etməliyik ki, hürufilik qaynaqlarında Fəzlullahın ailə üzvlərinin, bəzi müridlərin adlarının dəyişkənliyi fikir çaşqınlığı yaradır. Sədrəddin Tərke (və ya Torke) və Rəis Mahmudun (Dərviş Rəis) adlarının çeşidliliyi də bunun bir örnəyidir.

[3] Qeyd etməliyik ki, bu adın araşdırmalarda çeşidli oxu tərzinə rast gəldik: Tərke (Musa Şamil Yüksel. Timurlularda Din-Devlet İlişkisi, s. 120), Türkih (Fatih Usluer. "Hurufilikte Rüya Tabirleri," s. 134-145, s. 143), Torke (Hasan-i Rumlu. Ahsenü't-Tevarih. Çeviren: Mürsel Öztürk (Ankara, Türk Tarih Kurumu Yayınları, 2006), s. 205). Torke hürufilik mətnlərində Əhməd Lorun sui-qəsdi ilə bağlı təqsirli bilinənlərdən biri olan Sainəddinin, *"Xabnamə"*də Fəzlullaha yuxu yozdurduğu bildirilən Sədrəddin və atası Əfzələddinin də adlarının əlavəsi kimi işlənir. Nafəcinin *"Xabnamə"*sində Əfzələddinin "Tork" deyə qeyd olunması (نصر الله نافجی. خوابنامه، و. 33 ) da diqqətimizi çəkdi. Bundan başqa, ilkin qaynaq və araşdırmalardan bu şəxslərin bir-birilə qohumluq əlaqələri ilə bağlı olması məlum olur: "Xacə Sainəddin Əli bin Xacə Əfzələddin bin Xacə Sədrəddin Torke İsfahani" (Hasan-i Rumlu. Ahsenü't-Tevarih, s. 205) Amma Nəsrullah Nafəcinin *"Xabnamə"*sindən məlum olur ki, Xacə Əfzələddin Xacə Sədrəddinin atasıdır. (نصر الله نافجی. خوابنامه، و. 33) Ə.Gölpınarlıya görə, *"Məhrəmnamə"*də adı Sainəddin Əli Beyhəqi kimi yad olunan şəxs Sainəddin Əli İsfahani olmalıdır. (bu barədə bax: Hurufilik Metinleri Katalogu, s. 16)

[4] Fatih Usluer. "Hurufilikte Rüya Tabirleri," s. 143.

[5] Hurufilik Metinleri Katalogu, s. 6.

نماز کردن[1] امیر تمور و باونماز گزاردن و فرش او برای درویشان می انداخت (می انداختم[2]).

*(Əmir Teymurla namaz qıldım, onunla namaz keçirdim, onun xalısını dərvişlər üçün açdım).*

Bəzi araşdırıcılara görə, Fəzlullahın digər bir yuxusunun nəqlində *“şel mərd”*[3] (şikəst kişi) deyə haqqında bəhs etdiyi şəxs Əmir Teymurdur.[4] Məlum faktları müqayisəmiz əsasında isə fərqli bir qənaətə gəldik. Belə ki, Fəzlullahın bu yuxunu Bakıya gəlməmişdən öncə – hələ Berucerddə olarkən görməsi, dekabr ayının 8-də[5] Bakıda gördüyü yuxuda Əmir Teymur və övladı (Miranşah nəzərdə tutulur) ilə mehdi barədə söhbət etdiyini bildirməsi bu qənaətin doğru olmadığını göstərir. Bu mənada *“şel mərd”* ifadəsinin eyham deyil, müstəqim anlamda istifadə olunduğunu deyə bilərik.

Fəzlullahın Əmir Teymuru öz təliminə dəvət etməsi, bunun Səmərqənd üləmasının hiddətinə səbəb olması və onların təhriki ilə Fəzlullahın təqibə məruz qalması ərəb müəlliflərinin (İbn Həcər[6], Səxavi[7] və s.) əsərlərindən bir çox araşdırmalara yol taparaq təkrarlanmaqdadır.[8] Tədqiqat əsərlərində, adətən, Fəzlullahın Əmir Teymuru təliminə dəvəti ilə onun edamına fərman verilməsi yaxın zamanlı hadisələr olaraq təqdim edildiyindən ciddi təhriflərə yol açmışdır.

---

[1] Məqalədə hürufi mətnləri əslinə uyğun və Astarabad ləhcəsinin özəllikləri qorunmaqla verilmişdir.

[2] فضل الله استرآبادی. جاودان نامه کبیر، و. 407.

[3] Yenə orada, v. 304.

Ə.Gölpınarlı Fəzlullahın “Şel Teymur” deyə Əmir Teymurdan bəhs etdiyini bildirirsə də (Hurufilik Metinleri Katalogu, s. 13), mətndə ifadə *“şel mərd”* şəklində yer alır.

[4] "آغاز فرقه حروفیه،" هلموت ریتر. ص. 354.

[5] Ə.Gölpınarlı *“Növmnamə”*də hürufi mürşidinin olduğu yerlərlə əlaqədar qeyd edilən tarixlər və Bakı ilə bağlı h. 796 / m. 1393-1394 tarixinin göstərilməsi əsasında Fəzlullahın ömrünün təqribən son altı ayını Bakıda yaşadığını bildirir. (Hurufilik Metinleri Katalogu, s. 7-8) Amma Əliyyül-Əlanın novruz günlərində Bakıya gəldiklərini bildirdiyi, Fəzlullahın dekabr ayının 8-də (ehtimal ki, 1393-cü il) Bakıda gördüyü bir yuxunu nəql etdiyi və ölümünə yazılan maddeyi-tarixlərdən 2 sentyabr 1394-cü ildə edam edildiyi məlum olduğu üçün hürufi mürşidinin Bakıda altı ay deyil, ən azı bir il yapım yaşayıb fəaliyyət göstərdiyi qənaətinə gəldik.

[6] *ابن حجر العسقلانی. انباء الغمر بابناء العمر*، ، تحقیق و تطیق حسن حبشی، (القاهرة، 1972)، الجزء الثانی، ص. 137-136.

[7] bax:

صادق کیا. واژه نامه گرگانی، ص. 13.

[8] Bəzi araşdırmalarda Fəzlullaha edam fitvasının təkcə Səmərqənd deyil, həm də Gilan üləması tərəfindən verilməsi bildirilir.

یعقوب آژند. حروفیه در تاریخ، ص. 24؛ کامل مصطفی الشیبی. تشیع و تصوف تا آغاز سده دوازدهم هجری، ترجمه علی رضا ذکاواتی قراگوزلو، (تهران: موسسه انتشارات امیر کبیر، 1378)، ص. 172.

Halbuki bu hadisələr arasında Fəzlullahın Şirvana mühacirəti baş vermişdi və buranın seçimi təsadüf nəticəsi deyildi. Əliyyül-Əlanın *"Kürsinamə"*sindən məlum olduğu kimi, onlar novruz bayramı günlərində Miranşahla ittifaq bağlamağa nail olmuş və Şirvana getməyə razılıq almışdılar. Həmin əsərdə yer alan *"Şirvandan nəsib veriləndə"* ifadəsindən həm də onların burada açıq fəaliyyət üçün icazə aldıqları qənaəti hasil olur:

عید و نوروزی به هم پیوسته شد　　چون نصیب ما ز شروان بسته شد
ضاد و طی تاریخ و یی بی شد ز عید[1]　　کز خدا الهام شادی در رسید
کشتی نوحی بآب انداختیم[2]　　خانه را ز اندوه و غم پرداختیم
قاضی ملعون یزید شمر خو　　از خدا و انبیا پیچیده رو
با امیر آن لعین دیو زاد　　آن دو روی کافر بی [اعتقاد]
دوستی با حق چو میبودش ریا　　در همه دین روسیا[3]...

*(Bizə Şirvandan nəsib veriləndə bayram və novruz bir-birinə qovuşmuşdu.*

---

[1] *"Eyd"* ("bayram") deyilərkən, çox ehtimal ki, ramazan bayramı nəzərdə tutulur. H.Ritterin də ifadəni bu anlamda qəbul etməsi onun hərf-işarələri yozumundan məlum olur. Tədqiqatçı *"yey"*in 10-a, *"be"*nin 2-yə bərabər olduğunu nəzərdə tutaraq, bu hərflərin əbcəd hesabı əsasında mətndə "fitrdən sonrakı 12 gün"ə işarə olunduğunu bildirir. (هلموت ریتر. آغاز فرقه حروفیه، ص. 362)

Məlum olduğu kimi, orucluq eyd əl-fitr (fitr bayramı) ilə başa çatır. Nəsimi şeiri və digər əsərlərdə təkcə *"eydi-əkbər"* deyil, çox zaman ümumi anlamlı *"eyd"* ifadəsi də ramazan bayramı mənasında istifadə olunur. Bu mənada ilk misraları Miranşahla Fəzlullahın ittifaq bağladığı ildə ramazan və novruz bayramlarının eyni vaxta təsadüf etməsinin ifadəsi kimi anlamaq olur. Bundan başqa, novruz bayramı İranda müasir çağda da 13 gün davam edir. Mətndən ramazandan 12 gün keçdiyi, novruz bayramının isə hələ də davam etdiyi qənaəti hasil olur. Bu tarixin qeyd olunduğu tərzdən iki bayramın qovuşuğunun fəaliyyət azadlığı icazəsi almış hürufilər üçün xüsusi bir əlamət kimi görülməsi nəticəsinə də gəlmək olur.

[2] H.Ritter yanlış olaraq, bu beytlərin Qara Yusifin Təbriz yaxınlığında Miranşah üzərində qələbəsi münasibətilə söyləndiyini bildirir. (s.362, هلموت ریتر. آغاز فرقه حروفیه،).

Çox güman ki, *"zad"*ü *"tey"* tarix oldu" ("tarix 809 oldu") deyimi tədqiqatçıda fikir çaşqınlığı yaradıb. H. 809 / m. 1407 tarixini Qara Yusifin Miranşah üzərindəki qələbəsinin ili kimi qəbul edən H.Ritter beytdə *"ab"* (su) deyilərkən Kür çayının nəzərdə tutulduğunu ehtimal edir. ( هلموت ریتر. آغاز فرقه حروفیه، ص 362) Halbuki həmin döyüş h. 810 / m. 1407-1408-ci ildə, yəni Fəzlullahın ölümündən 11 il sonra olmuşdur. Mətndə Fəzlullahın sağlığında Şirvana gəlinməsi və sonda Miranşahın hürufiliyin mürşidinə xəyanətindən bəhs edildiyi üçün bu iki hadisə (Miranşahın hürufilərlə ittifaqı və Qara Yusif tərəfindən məğlub edilməsi) eynizamanlı kimi qəbul edilə bilməz. Eləcə də beytdə Şirvana, daha dəqiq desək, Bakıya gəlişdən və Miranşahla Fəzlullahın ittifaqından söz açıldığından burada "gəminin salındığı su" deyilərkən Xəzər dənizinin nəzərdə tutulması qənaətinə gəldik.

[3] صادق کیا. واژه نامه گرگانی، ص. 293.

*Xudadan* (Fəzlullah – S.Ş.) *şadlıq ilhamı yetişəndə tarix 809 (idi)*[1]*, bayramdan 12 gün keç(miş)di*[2]*. (Xəbəri aldıqdan sonra) Nuhun gəmisini suya saldıq, (bununla da can) evimizi kədər və qəmdən qurtardıq. Yezid, Şümur xislətli, Allah və peyğəmbərlərdən yüzünü çevirmiş o lənətə gəlmiş qazı*[3] *Divin oğlu o lənətə gəlmiş əmirlə*[4]*, o [etiqad]sız ikiüzlü kafirlə (birləşdi). Bütün dinlərdə üzü qara (o əmirin) haqla* (Fəzlullah – S.Ş.) *dostluğu riya imiş...).*

Hürufiliyin tarixçisi adlandıra biləcəyimiz Əliyyül-Əlanın *"Kürsinamə"*sində yer alan yuxarıdakı beytlərin məzmunundan bəlli olur ki, ailəsi və özünə yaxın insanlar, xəlifələr və ardıcılları ilə Şirvana gələn Fəzlullah Miranşahdan himayə vədi almış və bu, hürufilərin böyük sevincinə səbəb olmuşdu.[5] Amma Miranşah sonra sözündən dönmüş və onlara xəyanət etmişdi. Yuxarıdakı misralar Teymuri-hürufi münasibətlərinə işıq salmaqla bərabər, həm də Fəzlullahın Teymurilərin siyasi nüfuz dairəsinə daxil olan Bakıya – Şirvana hansı ümidlərlə gəlməsinə[6] bir aydınlıq gətirir.

Burada hürufi mürşidinin Bakıda gördüyü və öncə də ümumiləşdirərək xatırlatdığımız bir yuxusunu qeyd etmək yerinə düşərdi. Mətndə deyilir:

در باکویه در مسجد بخواب دیدن ان کنبد و رسن ها که در آنجا بسته بودند و بحث امیر تیمور و فرزندش و هفت اقلیم و ا کس که بر بالاء هفت اقلیم اشتان[7]

*"Bakuyədə məsciddə (yatarkən) yuxuda o günbəzi və ona bağlanmış ipləri gördüm. Əmir Teymur, övladı*[8]*, yeddi iqlim və yeddi iqlimin üstündə duran*[1] *o*

---

[1] *"Zad"* – 800, *"tey"* -9 = 809

[2] Buradan dolayısı ilə *"eyd"*in (bayram) (عيد) *"əbəd"*ə dönməsi, yəni bayramın sonsuzluğadək uzanması anlamını da çıxarmaq olar: *"Eyd"in (bayram) "yey"i "bey" oldu"*. Amma *"əbəd"* (ابد) *"əlif"*lə yazıldığından yazılışın deyil, tələffüzün nəzərdə tutulduğunu ehtimal edirik.

[3] Y.Ajəndə görə, burada *"qazı"* deyilərkən Şirvanşah Şeyx İbrahimin vəziri Qazı Bayəzid nəzərdə tutulur, (s.24. يعقوب آژند. حروفيه در تاريخ، ) Amma Fəzlullahın ölümünə yazılmış maddeyi-tarixlərdə o qazının deyil, Şirvanşah Şeyx İbrahimin adı vurğulandığından bu mətndə də haqqında söz alan *"qazı"*nın Şirvanşah olması qənaətindəyik.

[4] Əsl adı Əmiranşah olan Miranşah nəzərdə tutulur.

[5] Miranşahın hürufilərlə ittifaqına bir sıra araşdırmalarda ümumi şəkildə toxunulmuş, hətta bu, Miranşahın hürufiliyə meyli kimi dəyərləndirilmişdir. (bax: يعقوب آژند. حروفيه در تاريخ، ص. 24)

[6] Fəzlullahın Miranşaha sığınmaq üçün Şirvana getməsini Ə.Gölpınarlıya istinadən nəsimişünas alim H.Ayan da təsdiqləyir (Hüseyin Ayan. Nesimi. Hayatı, Edebi Kişiliği, Eserleri ve Türkçe Divanının Tenkitli Metni (Ankara, Türk Dil Kurumu Yayınları, 2002), I. Cilt, s. 36).

[7] فضل الله استرآبادى. جاودان نامه كبير، و. 407.

[8] O dövrdə hürufilərin müttəfiqi olan Miranşah nəzərdə tutulur.

*kimsənin söhbəti(ni edirdim)”.*

Fəzlullahın üstüörtülü şəkildə işarə etdiyi “yeddi iqlimin üstündə duran”ın Mehdi olmasına onun bəzi yuxularının nəqli və digər hürufi müəlliflərin əsərlərindəki çeşidli işarələr[2] də yardım edir. Bu yuxunun məzmunundan onun Bakıda olarkən təkcə Miranşaha deyil, Əmir Teymura da təliminin təbliği ilə bağlı böyük ümidlər bəslədiyi məlum olur.[3]

Araşdırmaların bir qismində Fəzlullahın Əmir Teymurun təqibindən qaçaraq Şirvana gizlənmək niyyəti ilə getdiyi qeydinə də rast gəlinir.[4] Amma onun Teymurilərdən qorunmaq niyyəti olsaydı, Əmir Teymurun yaxın müttəfiqi Şirvanşah Şeyx İbrahimin ölkəsinə gəlməz, bu xanədana rəğbət bəsləməyən Misir hökmdarı Sultan Fərəcə, yaxud Teymurilərin açıq düşməni İldırım Bayəzidin himayəsinə də sığına bilərdi. Fəzlullahın Bakıya mühacirəti, sonralar müridlərinin etdiyi kimi, Şam və Anadoluya köç etməməsi də hürufi mürşidinin Teymurilərdən himayə alacağına ümid etdiyini göstərir. Araşdırıcıların məsələnin bu cəhətlərini və Əliyyül-Əlanın əsərindəki faktları nəzərə almaması nəticədə hürufi mürşidinin ailəsi və ən yaxın müridləri ilə Şirvana gəlişinin səbəbi haqqında naqis təsəvvür yaratmışdır.

---

[1] “Duran” sifəti ilə yad olunan Nəsri-teyrdir. Astrologiyaya görə, hər biri üç ulduzun birləşməsindən əmələ gələn Nəsri-teyr və Nəsri-vaqe iki qartala bənzəyir. Aralarındakı fərq Nəsri-teyrin uçuşa hazırlaşan və ayaq üstə duran, Nəsri-vaqenin isə yatmış qartala bənzəməsidir. Nəsri-teyr kultu və Fəzlullahın mehdilik iddiaları barədə bax: Səadət Şıxıyeva. “Cavidannamə”də Bakı ilə bağlı ezoterik interpretasiyalar,” Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı (Sovet İttifaqı qəhrəmanı, akademik Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpoziumun materialları, Bakı, 7-8 may 2012-ci il) (Bakı: Elm, 2012), s. 403.

[2] Bənzər tərzdə fikri ifadəyə Fəzlullahı şəxsən tanıyan hürufi müəllif Seyid İshaqın əsərində də rast gəlirik. Seyid İshaq *“Məhrəmnamə”*sinin yazılma səbəbini izah edərkən əsəri 21 rəbiül-əvvəl 828-ci ildə (10 fevral 1425) səhər çağı gördüyü bir röyaya görə yazdığını bildirir. Müəllif bu röyasında “qeyb otağının əmiri”nin (*“əmir-e seraperde-ye ğeyb”*) ona “başlanğıc, son, məqsəd və dövrlər” haqqında bu yolun məhrəmləri üçün açıqlayıcı bir əsər yazmağı məsləhət bildiyini söyləyir.

(مجموعه رسائل حروفيه، ص. 13)

Bu hürufi mətnindəki *“sərapərdeyi-qeyb”* (“qeyb otağı”) ilə *“Cavidannamə”*nin nüsxələrindən birinin (köçürülmə tarixi: h. 920 / 1514-1515) katib əlavəsində yer alan *“məqam-e inziva”* (فضل الله استرآبادى. جاودان نامه كبير، و. 424) eyni niyyətin çeşidli ifadələridir və hürufi mətnlərində mehdinin zühuru üçün nəzərdə tutulmuş yerə işarədir. Mehdinin zühur edəcəyi yerin kürsi, başqa sözlə, VIII mərtəbədə olması və bunun Bakuyədə olacağına isə *“Cavidannamə”*də bəzən açıq, bəzən dolayısı ilə işarələr vardır. (bu barədə bax: Səadət Şıxıyeva. “Cavidannamə”də Bakı ilə bağlı ezoterik interpretasiyalar,” s. 400-403)

[3] Y.Ajəndə görə, Fəzlullah o illərdə Xorasan və Mazandaranda qoşun toplamaqla məşğul olan Əmir Teymurla şəxsən də görüşə bilərdi. يعقوب آژند. حروفيه در تاريخ، ص. 21.

[4] bax: كامل مصطفى الشيبى. تشيع و تصوف تا آغاز سده دوازدهم هجرى، ص. 172.

Qeyd etməliyik ki, bu səfərin təkcə siyasi deyil, həm də ezoterik[1] məqsədli olmasına da digər araşdırıcılar diqqət yetirməmişlər. Məsələnin bu prizmadan təhlili isə Fəzlullahın mehdiliyinin elanı üçün uyğun bir ölkə axtarışı və ən sonda Şirvanı seçməsi qənaətinə gətirdi.

Ümumiyyətlə, hürufiliyin tarixi ilə bağlı araşdırmalarımız hərəkatın antifeodal olmaqdan artıq, çox zaman müəyyən bir zaman kəsiyində bir iqtidar sahibinin himayəsində digər bir iqtidar sahibinə qarşı çıxmasını üzə çıxardı. Teymuri-hürufi qarşıdurmasının təməli isə Fəzlullahın qətlinə fərmanın bu xanədandan verilməsi ilə qoyuldu. Bu edam hökmü və onu izləyən hadisələr ilə sonrakı dövrlərdə baş verən analoji hadisələri müqayisə etdikdə maraq doğuran nəticələr alındı. Belə ki, Fəzlullahın edamından sonra onun təliminin təmsilçiləri təqib olunmadı.[2] Hürufilər, daha dəqiq söyləsək, onun ailə üzvləri və yaxın çevrəsi mürşidin vəsiyyətinə görə, təlimin mühafizə olunması niyyəti ilə köç etdilər. Çox ehtimal ki, bu mühacirət onları həbs və ya təqibdən xilas edir. Eynisi Miranşahın ölümündən sonra da müşahidə olunur. Hürufilər bu qətldə iştirakı iddia etdikləri halda, onların təqibi, həbsi və s. barədə heç bir məlumata rast gəlinmir. Nəsimi 1417-ci ildə siyasi intriqaların qurbanı olur.[3] Onun müttəfiqlərinə (zülqədərli Nəsrəddin bəy və Əli bəy) isə sadəcə xəbərdarlıq olunur və hürufilik görüşlərinin digər daşıyıcıları həbs olunmurlar.

İndiyədək diqqət yetirilməmiş bu cəhətlər bir çox araşdırmalarda hürufiliyin rəhbərlərinin həbsi və ya edamının onların məzhəbi və ya dini görüşləri ilə bağlılığının, başçılardan birinin edamının ardınca kütləvi şəkildə həbslər edilməsi barədə söylənilənlərin tarixi gerçəkliyə uyğun olmadığını, onların təqib və qətlinin həqiqi səbəbinin bu təlimin müəyyən dövrlərdə nüfuzunun artmasının siyasi iqtidar üçün təhlükə yaratmasından qaynaqlanmasını göstərir.[4]

### *3. Hürufilərin siyasi yönümlü fəaliyyətinin xarakteri*

İlkin hürufilik qaynaqlarından məlum olur ki, hürufilər çeşidli xanədanların

---

[1] Bu barədə bax: Səadət Şıxıyeva. “Cavidannamə”də Bakı ilə bağlı ezoterik interpretasiyalar, s. 400-403.

[2] Fəzlullahın *“Vəsiyyətnamə”*sində onun davamçılarını, xüsusilə ailə üzvlərini belə bir aqibətin gözləyəcəyindən ehtiyatlanması ifadəsini tapmışdır: وا ماندگان و محنت زدگان را از ما فرزندان بپرسند... (Abdülbaki Gölpınarlı. Fazlullah-ı Hurûfinin Vasiyyat-nama’si veya Vasayası, s. 60). *((o) yadigar və dərdli övladlar(ım)ı soruşarlar...).*

[3] Bu barədə bax: Səadət Şıxıyeva. “Hürufilərin siyasi mübarizə tarixindən,” s. 128-129.

[4] Bax: yenə orada, s. 126-129.

nümayəndələri ilə ünsiyyət qurmuş və ya ittifaq bağlamışlar. Fəzlullahın *"Növmnamə"*sindən onun təkcə Teymurilərdən Əmir Teymur və oğlu Miranşaha deyil, eləcə də Cəlayiri Sultan Üveysə və Qızıl Orda xanı Toxtamış xana[1] ümid bəsləməsi, Toğa Teymurlu Əmir Vəli[2] ilə ünsiyyətlərinin olması, Sultan Üveysin yaxın çevrəsindən Şeyx Xacə ilə əlaqəsi məlum olur.[3] XV yüzilliyin ilk onilliklərində çox kəskinləşməsi ilə diqqəti çəkən hürufi-Teymuri müxalifəti əslində, öncə də qeyd etdiyimiz kimi, bu fəlsəfi-fikri cərəyanın mürşidi Fəzlullahın Əmir Teymurun əmri əsasında Miranşah tərəfindən qətlə yetirilməsindən sonra başlamışdı. Fəzlullahın sağlığında isə hürufilərin nəinki Əmir Teymur və övladlarına, eyni zamanda hər hansı bir hakimə qarşı açıq silahlı üsyanları olmamışdı.

Bir çox araşdırmalarda istər 1408-ci ildə Teymurilərdən Miranşah və oğlu Əbubəkrlə Qaraqoyunlu Qara Yusif arasındakı döyüş, istər 1427-ci ildə hürufilərin Heratda Şahruxa sui-qəsdi[4], istərsə də 1432-ci ildə İsfahanda baş verən Hacı Sürx qiyamı hürufi üsyanları silsiləsinin halqaları olaraq öyrənilir. Hətta Petruşevski: "Xorasandan Osmanlıya qədər olan ərazini XV əsrin birinci onilliklərində hürufi

---

[1] Ümumiyyətlə, hürufi mürşidi və müridlərinin çox sayda səyahətləri siyasi müttəfiq və uyğun ictimai-dini zəmin axtarışı ilə bağlı idi. Faktları təhlilimiz nəticəsində belə bir qənaətə gəldik ki, siyasi hami ilə danışıqları təşkilatın sadə üzvləri deyil, mürşid və ya onun etibarlı nümayəndəsi həyata keçirə bilərdi. Fəzlullahın siyasi dəstək üçün Teymurilər dövlətinə müraciəti, yaxın çevrəsindən Fəxrəddini Saraya – Toxtamış xanın yanına danışıq aparmaq üçün göndərməsi, Əliyyül-Əlanın Qaraqoyunlu Qara Yusiflə, Nəsiminin Zülqədər bəyləri ilə ittifaqı belə düşünməyə əsas verir. (bu barədə bax: Səadət Şıxıyeva. "Hürufilərin siyasi mübarizə tarixindən," s. 129)

[2] İndiyədək Fəzlullahın *"Növmnamə"*sində adı yad olunan Əmir Vəlinin kimliyi məsələsinə diqqət yetirilməmişdir. Toğa Teymurlu Əmir Vəli isə hürufi mürşidinin siyasi dairələrlə yaxınlığının daha bir həlqəsidir. Sərbədarlı Əli Müəyyədin bir hakim olaraq Əmir Vəlinin himayəsində sığınması (يعقوب آژند. حروفيه در تاريخ، ص. 24) və Fəzlullahın müridlərindən olması bu əmirlə tanışlığın mümkünlüyünü göstərir.

[3] *"Əhsənüt-təvarix"*in şərhlər qismində *"Daneşməndan-e Azərbaycan"*a istinadən deyilir: "Xacə Şeyx olaraq tanınan Xacə Şeyx Məhəmməd Kococani (Kococan: Təbrizə iki fərsəx uzaqlıqda bir kənd). Soyu hz. İmam Zeynalabidinə dayanır. Zamanının tanınmış şəxslərindən idi. Təbriz, Bağdad və Şamda mədrəsələr, məscidlər və xanəgahlar tikdirdi. Nəhayət, Sultan Əhməd Cəlayirin fərmanıyla öldürüldü. Qəbri Bağdaddadır" (Hasan-i Rumlu. Ahsenü't-Tevarih, s. 57).

[4] F.Usluərin ehtimalına görə, hürufilərin bu sui-qəsdi Şahruxun hürufilərə təzyiqinin, daha dəqiq deyilərsə, onun 1405 və 1406-cı illərdə baş verən üsyanları yatırtmasının nəticəsidir. (Fatih Usluer. Hurûfilik-İlk Elden Kaynaklarla Doğuşundan İtibaren, s. 21) Amma Şahruxun 1405 və 1406-cı illərdə sərbədarilərin üsyanını yatırtmasına cavab olaraq, hürufilərin 1427-ci ildə sui-qəsd təşkil etməsi inandırıcı görünmür.

qiyamları bürümüşdü"[1] qənaətindədir. İlk baxışda tədqiqatçı haqlı görünsə də, hürufi-Teymuri müxalifəti hürufilərin bu xanədandan Fəzlullahın intiqamını alma niyyətindən qaynaqlanmaqdaydı. Başqa sözlə, bu müxalifətdə siyasi hakimiyyətə yiyələnmək cəhdi deyil, daha çox hürufi dərvişlərinin intiqam alma istəyi ön planda görünür. Bununla belə, Şahruxa sui-qəsdlə əlaqədar qurulan məhkəmədə hürufi Əmir Nurullahın hakimiyyət çevrilişi iddialarında olmasına görə də ittiham edilməsi[2] belə bir gizli niyyətin ola biləcəyi təsəvvürünü yaradır. Əmir Qiyasəddinin məktubunun əvvəlində Şahruxa sui-qəsd haqqında "bu hadisə qiyam kimi göründü" deməsindən də hakimiyyət çevrilişi iddiasının ola biləcəyindən şübhələnilməsi məlum olur.

Teymurilərlə qarşıdurmalar silsiləsində indiyədək diqqət edilməmiş daha bir müxalifət isə hürufilərin Qaraqoyunlu İsgəndər Mirzənin qoşununda Şahruxa qarşı vuruşmasıdır.[3]

Onu da qeyd etməliyik ki, hürufilərin Qaraqoyunlularla münasibətləri digər araşdırmalarda, ümumiyyətlə, natamam öyrənilmişdir. Qaraqoyunlu-hürufi əlaqələrində diqqətimizi xüsusi cəlb edən cəhət bu xanədanın nümayəndələrinə ziddiyyətli münasibətin ifadəsi oldu. Bu təlimin təmsilçilərindən Əliyyül-Əlanın və ümumilikdə hürufilərin Qara Yusifə müsbət münasibətindən araşdırmalarda dönə-dönə bəhs edilmiş[4], amma sonrakı dövr hürufi ədəbiyyatında ona mənfi münasibətin də ifadəsinə[5] diqqət yetirilməmişdir. Əliyyül-Əlanın *"Kürsinamə"* adlı əsərindən onun

---

[1] Петрушевский И.П. Ислам в Иране в VII-XV веках (Ленинград: Издательство Ленинградского университета, 1966), s. 353.

[2] bax: Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurufi'nin Oğluna Ait Bir Mektup," s. 40.
Əmir Nurullah da deyir:
اگر بحسب شرع و گواه اثبات شود که آن کس را من فرستادم که بدین کار قیام نماید هر چه قصص باشد بکند
*(Əgər şəriətə görə, şahidlə sübut etsəniz ki, o şəxsi mən göndərmişəm ki, bu yolla qiyam etsin, hər nə qisas olarsa, edin).* (Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurûfi'nin Oğluna Ait Bir Mektup," s. 40)

[3] Bu barədə ətraflı məlumat üçün bax: Səadət Şıxıyeva. "Hürufi müəlliflər Qaraqoyunlular haqqında," Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları (akad. V.Məmmədəliyevin 70 illiyinə həsr olunmuş konfransın materialları), Bakı, 27-28 iyun 2013, s. 433-434.

[4] هلموت ريتر. "آغاز فرقه حروفيه،" ص. 358-362، 389.
Səadət Şıxıyeva. Hürufilərin siyasi mübarizə tarixindən, s. 129; Yenə onun: "İslami mühit və hürufilikdə etnik düşüncənin təzahürləri (II)," AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Elmi araşdırmalar"ı, 1-4 (VIII buraxılış) (2006), s. 563; Ayşe Atıcı. "Karakoyunlu Hükümdarlarından Cihanşah ve Dönemi (Siyaset-Teşkilat-İktisad-Din-Kültür) 1438-1467" (Doktora Tezi), Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2010, s. 353-354.

[5] Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurufi'nin Oğluna Ait Bir Mektup," s. 53

Əmir Teymurun qatı düşməni və İldırım Bayəzidlə dostluq münasibətində olan Qaraqoyunlu Qara Yusif ilə razılığa gəlməsi və Miranşaha qarşı döyüşdə hürufilərin də iştirakı məlum olur.[1] Görünür, Əliyyül-Əlanın bu fəaliyyətinin nəticəsidir ki, sonralar Qara Yusifin oğulları – Şah Məhəmməd, İsgəndər Mirzə və Cahanşah da hürufiliyə müsbət münasibətləri ilə seçildilər. Bununla belə, hürufiliyin mötəbər qaynaqlarından olan *"Şamilnamə"*də Əmir Qiyasəddinin, dayısı Əliyyül-Əladan fərqli olaraq, nəinki bu igid sərkərdəyə heyran olmadığı, əksinə, Teymurilər kimi ona da mənfi münasibəti ifadəsini tapmışdır.[2] Bu özəlliklər Qaraqoyunlu-hürufi münasibətlərini birmənalı olmadığını göstərir. Halbuki digər tədqiqatlarda hürufilərin Qara Yusifə müsbət münasibəti qeyd olunmuş, onun oğullarının hürufiliklə əlaqəsi isə natamam öyrənilmişdir. Belə ki, Qara Yusif və oğlu Cahanşahın hürufilərlə münasibətindən bir çox tədqiqat əsərlərində söz açılsa da, bu türkman bəyinin digər oğulları – Şah Məhəmməd və İsgəndər Mirzənin hürufilərlə əlaqəsi diqqətdən kənarda qalmışdır. Doğrudur, tanınmış tarixçi alim İsmayıl Aka Şah Məhəmmədin bu təlimin nümayəndələri ilə əlaqəsinə Əmir Qiyasəddinin məktubu əsasında ötəri toxunmuşdur.[3] Bununla belə, istər hürufi Dərviş Məhəmməd Tirgərlə səhv salınmasına görə, istərsə də Qaraqoyunlu-hürufi münasibətlərinin tədqiqi və dəyərləndi-

---

[1] Bu təlimin ardıcıllarının Fəzlullahın qisasını almaq üçün Qaraqoyunlu Qara Yusifin (ölümü-1420) qoşununun tərkibində 1408-ci ildə Miranşaha qarşı vuruşmaları barədəki məlumatlar da ziddiyyətlidir və çoxlu suallar doğurur. Amma Əliyyül-Əlanın *"Kürsinamə"*-sində Miranşahın qatilinin hürufi olmasının qətiyyətlə bildirilməsi, Əmir Qiyasəddinin *"Şamilnamə"*sində bu hadisəyə dolayısı ilə işarə edilməsi (Miranşahın öldürüldüyü qılıncın öpülməsi qeydi) hürufi çevrələrində Fəzlullahın qatili Miranşahın hürufi tərəfindən öldürüldüyü qənaətini göstərir.

Qeyd etməliyik ki, Əliyyül-Əlanın *"Qiyamətnamə"*sində Miranşahın h. 803 / m. 1400-1401-ci ildə öldürüldüyü bildirilir. H.Ritter bunu Əliyyül-Əlaya yanlış məlumat çatdırılması kimi izah edir. (هلموت ريتر. "آغاز فرقه حروفيه،"، ص. 360) Çünki bu hadisə, H.Ritterin də qeyd etdiyi kimi, bir neçə il sonra baş vermişdi. Tədqiqatçı hadisənin baş verdiyi tarixi h. 809 (810) olaraq qeyd edir. (هلموت ريتر. "آغاز فرقه حروفيه،" ص. 360) Orta çağ tarix əsərlərində isə bu döyüşün 1408-ci ildə olması qeyd edilmişdir. (bu barədə bax: İsmail Aka. Mirza Şahruh ve Zamanı (1405-1447) (Ankara: Türk Tarih Kurumu Yayınları, 1994), s. 54) Əmir Qiyasəddinin məktubundan (*"Şamilnamə"*) Fəzlullahın nəvəsi Əmir Nurullahın Qara Yusiflə, eləcə də oğulları Şah Məhəmməd və İsgəndər Mirzə ilə, Qara Yusifin qardaşı oğlu Sultan Qazan Mirzə ilə şəxsi tanışlığı və birbaşa ünsiyyəti bəlli olur.

[2] Əmir Nurullah Teymuri Uluğ bəy tərəfindən Qara Yusiflə birlikdə olduqlarına və onunla içki içdiklərinə görə məzəmmət olunduqda türkman bəyinin cahilliyinə görə ondan qorxduqları və bunu məcburi etdiklərini, eləcə də o zaman çox gənc olduqlarını bildirir. (bu barədə ətraflı məlumat üçün bax: Səadət Şıxıyeva. "Hürufi müəlliflər Qaraqoyunlular haqqında," s. 439-440)

[3] İsmail Aka. Mirza Şahruh ve Zamanı (1405-1447), s. 139.

rilməsi baxımından bu məsələ təfərrüatlı araşdırmaya möhtacdır.[1]

Qeyd etməliyik ki, Əmir Nurullah və Əmir Qiyasəddinin Bağdada gedərkən Dərviş Məhəmməd Tirgərlə görüşməsi Şah Məhəmmədin kimliyi üzərinə kölgə salmışdır. Belə ki, Hüsamə ttin Aksuya görə, *“Şamilnamə”*də sözü gedən Şah Məhəmməd və *“İstivanamə”*də bir neçə dəfə xatırlanan Dərviş Məhəmməd Tirgər eyni şəxslərdir.[2] Halbuki Əmir Nurullah və Əmir Qiyasəddin bu hürufi dərvişi ilə Bağdadda deyil, Bağdadın yaxınlığındakı Baği-Qubədə[3] görüşürlər.[4] Bundan başqa, mətni diqqətlə tədqiq etdikdə görürük ki, Məhəmməd Tirgərin adı hər dəfə Şah deyil, Dərviş epiteti ilə verilir.[5] Bağdad hakimi Şah Məhəmməd isə aşağıdakı şəkildə yad olunur:

در ماه ربیع الاخر بشهر بغداد رسیدیم و شاه محمد را دیده شد و انواع شفقتها نمود الا عجب دین و مذهبی و اصطلاحی وضع کرده است مشاهده آن افتاد بنا بر انکار انبیا (و) اولیا از نفرت اعتقاد و کمالات او بی دستوری از شهر بغداد بیرون آمدیم[6]

*(Rəbuəlaxır ayında Bağdada yetişdik və Şah Məhəmmədi gördük və (o) çeşidli şəfqətlər etdi, amma onun vəz etdiyi din, məzhəb və istilahda qəribə (şeylər) müşahidə edildi, onun peyğəmbərlər və övliyalara nifrətindən dolayı etiqadı və düşüncəsinə nifrət (edərək) icazə almadan Bağdad şəhərindən çıxdıq).*

*“Şamilnamə”*də, eləcə də tarix əsərlərində Şah Məhəmməd haqqında

---

[1] *“İslami mühit və hürufilikdə etnik düşüncənin təzahürləri”* adlı məqaləmizdə Əmir Qiyasəddinin məktubunda Şah Məhəmməd deyilərkən Qara Yusifin oğlunun nəzərdə tutulmasından qısaca olaraq bəhs etmişik. (bax: Səadət Şıxıyeva. İslami mühit və hürufilikdə etnik düşüncənin təzahürləri (II), s. 559) Bununla belə, qənaətimizcə, hürufilik-Qaraqoyunlu münasibətlərinin tarixi təfərrüatlı öyrənilməli, Şah Məhəmməd və hürufilərin görüşlərində islamı dəyərlər baxımından fərqlər, hər ikisi (hürufilik və Qaraqoyunlular) şiəliklə əlaqələndirilsə də, bu məzhəbdən qaynaqlanma və ayrılmaların xarakter və səviyyəsi ayrıca bir araşdırmada tədqiq edilməlidir.

[2] Bax: Hüsamettin Aksu. Amir Giyas al-Din Muhammed al-Astarabadi ve “İstivanama”si (Doktora Tezi), İstanbul Üniversitesi Edebiyat Fakültesi, 1981, s. 107, 112.

[3] Bu coğrafi adın Bakubə, Yakubə (Hasan-i Rumlu. Ahsenü’t-Tevarih, s. 83), Ba’ənqəbe (باعنقبه) (Abdülbaki Gölpınarlı. “Fazlullah-ı Hurûfi’nin Oğluna Ait Bir Mektup,” s. 56; امیرغیاث الدین محمد بن حسین بن محمد الحسینی الاسترابادی. استوانامه، بتصحیح و اهتمام حسام الدین آقصو، (استانبول، 1981)، ص. 196)

və ya Ba’quba (با عقوبا)

(امیرغیاث الدین محمد بن حسین بن محمد الحسینی الاسترابادی. استوانامه، ص. 196)

şəkillərində də yazılışa rast gəlinir. Bu toponimin Bakı və Quba ilə səsləşməsi, hürufilərin məskunlaşdığı yerlər sırasında olması maraq doğurmaya bilmir.

[4] امیرغیاث الدین محمد بن حسین بن محمد الحسینی الاسترابادی. استوانامه، ص. 88.

[5] Bax: Yenə orada, s. 82, 88.

[6] Abdülbaki Gölpınarlı. “Fazlullah-ı Hurûfi’nin Oğluna Ait Bir Mektup,” s. 56.

söylənilənlərə[1] istinadən belə bir qənaətə gəldik ki, məktubda Şah Məhəmməd deyilərkən nəzərdə tutulan şəxs həmin dövrdə Bağdadda hakim olan Qaraqoyunlu Məhəmməddən başqası deyil.

Müxtəlif illərdə Azərbaycanın hökmdarı olmuş İsgəndər Mirzənin də bu cərəyanın təmsilçiləri ilə əlaqəsindən az sayda araşdırmada qısaca bəhs olunmuşdur.[2] Hürufilərlə bu Qaraqoyunlu bəyinin Şahruxa qarşı birgə vuruşmaları[3] isə xüsusi araşdırmaya cəlb edilməmişdir. Şahruxa sui-qəsddən bəhs edərkən Əmir Qiyasəddinin məktubunu da təhlil edən tanınmış alim İ.Aka yazır: "Bu sui-qəsdə Qaraqoyunlu İsgəndərin aidiyyəti olub-olmadığı barədə bir şey söyləmək, bizcə, mümkün görünməməkdədir. Ancaq mühakimə zamanı bir şahidin... söylədiyi sözlər İsgəndərin bundan xəbərdar olduğunu da göstərə bilir".[4] Amma mətndə deyilənlərdən mühakimə olunan hürufilərin sui-qəsddən öncə Təbrizdən çıxarılması və Qaraqoyunlu İsgəndərin onların dövlət çevrilişi edəcəyindən ehtiyatlanması məlum olur. Bu anlamda tanınmış tarixçi alimin bu mülahizəni təsdiqləmək imkansız görünür.

Qaraqoyunlulardan Sultan Qazan xanın da o məhkəmə zamanı Heratda olması, Əmir Nurullahın Təbrizdə olarkən Qaraqoyunlu İsgəndərlə söhbətində onun da iştirak etdiyini bildirməsi və ümumiyyətlə, bu Qaraqoyunlu bəyinin hürufilərin görüşlərinə bələdliyi barədə deyilənlər çox maraq doğurur:

سلطان قزان (غازان) میرزا اینجاست و واقف احوال (و) اقوال ماست و در آن مملکت هر چه من گفته باشم در حصبت اسکندر و غیره او داند و شنیده باشد.[5]

*(Sultan Qazan Mirzə buradadır[6], (o) bizim mövqeyimiz və sözlərimizə*

---

[1] Bax: Vladimir Minorsky. "Kara Koyunlu Cihan Şah ve Şiirleri," Çeviren: Mine Erol, Selçuklu Araştırmaları Dergisi, II (1970), s. 157-158; Faruk Sümer. Karakoyunlular (Ankara: Türk Tarih Kurumu Yayınları, 1984), s. 114).

[2] İsmail Aka. Mirza Şahruh ve Zamanı (1405-1447), s. 139; Orkhan Mir-Kasimov. "The Hurūfī Moses: An Example of Late Medieval 'Heterodox' Interpretation of the Qur'an and Bible, Ecole Pratique Des Hautes Etudes," Journal of Qur'anic Studies, Journal of Qur'anic Studies, Edinburgh University Press, 10 (2008), s. 45.

[3] Bu barədə bax: Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurûfi'nin Oğluna Ait Bir Mektup," s. 40.

[4] İsmail Aka. Mirza Şahruh ve Zamanı (1405-1447), s. 139.

[5] Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurûfi'nin Oğluna Ait Bir Mektup," s. 44.

[6] Mətndə haqqında Sultan Qazan və Sultan Qazan Mirzə deyə bəhs olunan şəxs Qaraqoyunlu İsgəndərin əmisi Misir Xocanın oğludur. Onun adının araşdırmalarda Qazan padşah (İsmail Aka. Mirza Şahruh ve Zamanı (1405-1447), s. 152), Qazan xan (http://www.e-tarih.org/sayfa.php?sfid=298) şəkillərində verilməsinə də rast gəlinir. Söhbətin davamından məlum olur ki, Sultan Qazan Mirzə məhkəmədə olmasa da, Heratdadır. Onun məhkəmədə olmaması Şahruxun məclisdəkilərə onun bu barədəki rəyinin soruşulmasını tapşırmasından

*bələddir. O məmləkətdə*[1] *İsgəndər və qeyriləri ilə nə danışmışamsa, o bilir və eşidib).*

### *4. Hürufilərin mühacirətinin səbəbləri, şəkli və ölkə seçimi*

Hürufilikdən bəhs edən elmi, eləcə də elmi-populyar əsərlərdə sıxlıqla rast gəlinən mülahizələrdən biri də hürufilərin Fəzlullahın ölümündən (1394) sonra Türkiyəyə kütləvi mühacirətidir. Bu qənaətin natamamlığı isə Əliyyül-Əlanın *"Kürsinamə"*sindəki aşağıdakı qeydlərdən aydın görünür:

گر چه اخوان ز من رفتند پیش    تا کند اظهار این آئین و کیش
لیکن اول من فرستادم کتاب    تا ز استنبول بگذ شت او ز آب. [2]

*(Dostlarımın məndən əvvəl getməsinə baxmayaraq, bu ayin və inamı izhar etmək üçün birinci olaraq, mən (o) kitabı göndərdim, İstanbuldan*[3] *sudan keçərək getdi).*

Əliyyül-Əlanın bu qeydləri onun özündən, başqa sözlə, o da daxil olmaqla hürufilərin Türkiyəyə mühacirətindən əvvəl məsləkdaşlarının müxtəlif zamanlarda

---

məlum olur. Bu məsələdə beş cəhət diqqətimizi çəkdi: 1. Qaraqoyunlulardan Sultan Qazan Mirzənin də əmisi oğlu İsgəndərlə birlikdə hürufilərlə ittifaqı; 2. Bu şəxsin İsgəndərin etibar etdiyi insanlardan olması; 3. Teymuri Şahruxun da bu Qaraqoyunlu bəyinə etimad etməsi; 4. Həmin Qaraqoyunlu bəyinin hürufilərin mühakimə olunduğu dövrdə Heratda olması; 5. Adı bəzən Qaraqoyunlu-Teymuri düşmənçiliyinin başlamasının səbəbkarı kimi yad olunan və bu müxalifətin qurbanlarından biri olan Misir Xocanın oğlu Sultan Qazan Mirzə ilə Teymuri Şahruxun müsbət münasibətlərinin olması. Digər tədqiqatçıların diqqət yetirmədiyi bu cəhətlər Qaraqoyunlu-Teymuri münasibətlərinin birmənalı olmamasını göstərir. Qeyd etməliyik ki, bu sui-qəsd hadisəsindən bir neçə il sonra – 1435-ci ildə Sultan Qazan Mirzə Şahruxun himayəsinə keçir. (bu barədə bax: İsmail Aka. Mirza Şahruh ve Zamanı (1405-1447), s. 152)

[1] Təbriz nəzərdə tutulur.

[2] هلموت ریتر. "آغاز فرقه حروفیه، فرهنگ ایران زمین،" ص. 388.

[3] H.Ritter bu beytlər əsasında II Sultan Məhəmməd (Mehmet Fateh) zamanında Kostantinopolun fəth edilməsindən əvvəl də İstanbul adının istifadə edilməsini nəzərə çatdırır. Araşdırıcının ehtimalına görə, burada "su" ifadəsi ilə boğaz nəzərdə tutulur və kitabın çatdırıldığı yer o dövrdə Osmanlıların paytaxtı olan Ədirnədir.
(هلموت ریتر. "آغاز فرقه حروفیه،" ص. 388).

Burada onu da vurğulamaq istərdik ki, H.Ritter ümumi şəkildə bu misralarda söhbətin Qara dəniz sahillərindən getməsi qənaətindədir. (هلموت ریتر. "آغاز فرقه حروفیه،" ص. 389) Eyni mülahizənin ifadəsinə S.Keyada da rast gəlirik.( صادق کیا. واژه نامه گرگانی، ص.282-283 )

Həqiqətən də, mətndə Laz ellərinin adı qeyd olunduğundan burada "su" deyilərkən Qara dənizin nəzərdə tutulduğu ağlabatan görünür. Bu torpaqlarda hürufiliyin yayılmasını Mir Şərifin *"Həcnamə"*si də təsdiqləyir. (bax: Hurufilik Metinleri Katalogu, s. 28; Fatih Usluer. Hurûfilik-İlk Elden Kaynaklarla Doğuşundan İtibaren, s. 24)

bu ölkəyə gedərək, öz əqidələrini yaydığını, yaxud yaymağa cəhd etdiklərini göstərir.[1]

Qeyd etməliyik ki, ayrı-ayrı hürufilərin səfərləri və bu gedişdə məqsədləri barədə nə qaynaqlar, nə də araşdırmalarda fikir aydınlığı yoxdur. Məsələn, araşdırmalarda ənənəviləşmiş mülahizələrə görə, Fəzlullahın edam edilməsindən sonra Nəsimi hürufilərin kütləvi mühacirəti zamanı Anadoluya köçmüş[2], daha sonra Bağdad və Hələbə üz tutmuşdur. Zənnimizcə, Əliyyül-Əlanın aşağıdakı beyti bu məsələ ilə bağlı tərəddüdə son vermək üçün yetərlidir:

من فرستادم کتاب کردگار　　　سوی روم از شام نیکو یار دار.[3]

(*Yaradanın* (Fəzlullah – S.K.) *kitabını Ruma mən Şamdan göndərdim, buna diqqət yetir* (hərfən: yaxşı bil)).

Sanki sonradan bu məsələ ətrafında fikir dolaşıqlığının yaranacağından ehti-

---

[1] *"Kürsinamə"*dəki bu beytlər Fəzlullahın sağlığında da hürufilərin Anadoluya səfərlər etdiyini və bu torpaqlardakı təbliğatçılıq fəaliyyətinin h. 796 / m. 1394-cü ildən sonra deyil, ondan bir neçə il əvvəl başladığını göstərir. Nəsiminin təzkirə (Latifi. Tezkiretü'ş-Şuara ve Tabsıratü'n-Nuzama (İnceleme-Metin). Hazırlayan: Ridvan Canım (Ankara: Atatürk Kültür Merkezi Başkanlığı, 2000), s. 387) və araşdırmalarda (Hüseyin Ayan. Nesimi. Hayatı, Edebi Kişiliği, Eserleri ve Türkçe Divanının Tenkitli Metni, s. 2, 5) qeyd olunan Anadoluya səfərini hürufiliyin bu təbliğatçılıq fəaliyyətindən kənarda düşünmək üçün isə əsas yoxdur. Hürufi şairin I Sultan Murad zamanında Bursaya gedişi və tanınmış türk şairi Şeyxi ilə birgə fəaliyyəti (Latifi. Tezkiretü'ş-Şuara ve Tabsıratü'n-Nuzama (İnceleme-Metin), s. 387), zənnimizcə, fərdi xarakterli olmayıb, hürufilərin təbliğatçılıq fəaliyyətinin tərkib hissələrindəndir. Bundan başqa, Rəfinin *"Gəncnamə"*sində (h. 811 / m. 1408) yer alan aşağıdakı misralardan onun həmin səfərlər zamanı bəzən zindana salınması məlum olur və bu həbslərin hürufiliyin təbliği ilə bağlı olduğu qənaəti yaranır:

*Ol Nəsimi şəhidi-eşqi-Fəzli-zülcəlal,*
*Bəndü zindanlarda yatan mahü sal.*

(Hurufilik Metinleri Katalogu, s. 11)

Fəzlullahın *"Növmnamə"*sində yer alan bir qeyd də Nəsiminin hürufiliyin təbliği üçün səfərə getdiyini dolayısı ilə təsdiqləyir. Mətndə deyilir:

پیش اژه که کاغذ سید عماد بیاسه من دیه بین که سورا خی بی یا موضعی که مقدمه ظاهر بین سر آدم اژه کو ظاهر بی بی و زانان که ولایت سید عماد بی ا مو ضع.

( فضل الله استرآبادی. جاودان نامه کبیر، و. 410).

bax: صادق کیا. واژه نامه گرگانی، ص. 241.

(*Seyid İmaddan kağız (məktub-S.Ş.) gəlməmişdən əvvəl yuxuda bir yer gördüm ki, Adəmin sirri (hürufilik-S.Ş.) orada zahir olmuşdur və anladım ki, o yer Seyid İmadın vilayətidir).*

[2] Həmid Araslı. Seçilmiş əsərləri (Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1973), s. 11; Mirzəağa Quluzadə. *Böyük ideallar şairi* (Bakı: Gənclik, 1973), s. 18; Seyyid Nesimi Divanından Seçmeler. Hazırlayan: Kemal Edib Kürkçüoğlu, (Ankara: Kültür və Turizm Bakanlığı Yayınları, 1987), s. XIV; Əlyar Səfərli və Xəlil Yusifov. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı (Bakı: Ozan, 1998), s. 297.

[3] صادق کیا. واژه نامه گرگانی، ص. 283.

yat edən müəllif "yaxşı bil!" sözləri ilə diqqəti tarixi həqiqətə yönəldir. Fəzlullahın ölümündən sonra hər zaman Əliyyül-Əla ilə eyni bir mərkəzdə fəaliyyət göstərən Nəsiminin də onunla bərabər ilk öncə Şama, daha sonra Ruma getdiyini ehtimal edirik.

Hürufilərin öz əqidəsini təbliğ etmək üçün Şamı seçməsi və buraya xüsusi əhəmiyyət verməsinin səbəbi barədə Fəzlullahın *"Cavidannamə"*sində oxuyuruq:

حق تعا لی گفت که خلق اولین و آخرین را جمع کنم در زمین شام که زمین حشر آن خواهد بودن.[1]

*(Həqq-təala dedi: "Bütün yaradılmışı (*hərfən*: əvvəlinci və axırıncı yaradılışı) Şam torpağında cəmləyəcəyəm, çünki qiyamətin (qopacağı) torpaq ora olacaqdır").*

Əliyyül-Əla Şamın bu mövqeyinə aşağıdakı misralarında tam aydınlıq gətirir:

آمد از مغرب برون شاه نجوم — جانب غرب است چو از حق شام و روم
ف ق (فضل حق[2]) از قدرت آنجا آشکار — گشت چون خورشید در نصف النهار
بیت مقدس چون مقام حشر بود — رو در اول لاجرم آنجا نمود.[3]

*(Ulduzların elmini bilən şah* (burada: Fəzlullah) *qərbdən gəldi[4],*
*Çünki Həqqin (əmri ilə) Şam və Rum qərbdədir.*
*Fəzli-həqq (ilahi) qüdrətdən orada günorta aşkar olan günəş kimi üzə çıxdı.*
*Beytül-müqəddəs qiyamətin (qopacağı) yer olduğundan*
*Əvvəl, şübhəsiz ki, orada üzə çıxdığını göstərdi).*

Digər araşdırıcıların diqqət yetirmədiyi bu beytlərdən Əliyyül-Əlanın rəhbərliyi ilə hürufilərin niyə Şam və Ruma (Türkiyə) üz tutmasının səbəbi məlum olur. Ümumiyyətlə, araşdırmalarda bu səfərlərdən daha çox Ruma gedişdən bəhs olunmuş, bu səfərin mümkün səbəbləri və izlənilən niyyətləri təhlil olunmadan sadəcə bəzi faktların təkrarlanmasıyla kifayətlənilmişdir. Göründüyü kimi, Fəzlullahın sağlığında və daha sonralar Əliyyül-Əlanın ölkə seçimlərində əhəmiyyət verilən məsələ qiyamətin qopacağı və yeni dünyanın yaranacağı yeri müəyyənləşdirmək

[1] Yenə orada, s. 134.

[2] Mətndə hürufilərin spesifik hərf-ixtisarlarından olan *"fə"* və *"qaf"*ın *"Fəzli-həq"* olaraq açıqlaması S.Keyaya aiddir.

[3] صادق کیا. واژه نامه گرگانی، ص.282.283-

[4] Maraqlıdır ki, hürufi qaynaqlarından Astarabadda anadan olması bəlli olan Fəzlullahı Əliyyül-Əla bir neçə dəfə qərb və Rumla əlaqələndirir, onu *"aşiqi-Rumi"* (صادق کیا. واژه نامه گرگانی، ص.290) də adlandırır.

idi. Analoji durum hürufilərin Bakıya gəlişinin səbəbini araşdırarkən də üzə çıxdı.[1]

Fəzlulahın edamından sonra hürufilərin mühacirətinin xarakteri isə, ümumiyyətlə, kütləvi olaraq qəbul olunmuşdur. Hürufiliyin tanınmış tədqiqatçılarından olan Fatih Usluərə görə, hürufilərin kütləvi mühacirəti barədə deyilənlər tamamilə yanlış düşüncələrdir.[2] *"İstivanamə"*də hürufilərin yayılma coğrafiyası barədə verilən məlumatlar, həmçinin Şirvan, Gilan, Mazandaran, Təbriz, Xorasan və s.-də hürufi mərkəzləri olmasından bəhs edilməsi tədqiqatçının bu qənaətinin doğruluğunu təsdiqləyir. Belə ki, *"İstivanamə"*dən hürufilərin fəaliyyət üçün ölkə seçimi və məskunlaşması ilə bağlı qeydlərdən kütləvilik deyil, qruplar halında mərkəzləşmə qənaəti hasil olur.

## *5. Hürufilərin Şahruxa sui-qəsdi ilə bağlı gerçəklik və uydurmalar*

Ümumiyyətlə, istər hürufilərin üsyan və sui-qəsdlərindən bəhs edən ilkin qaynaqlarda, istərsə də araşdırmalarda söylənilənlərdə mübaliğə və uydurmalar çoxluq təşkil edir. Bəzi hadisələrin təsviri və nəqlində təkrarçılıq və təhriflər tarixi gerçəkliyin öz yerini tamamilə yanılma və yanıltmalara verməsi ilə nəticələnmişdir.

Hürufi üsyan və sui-qəsdlərindən, o cümlədən Əmir Teymurun oğlu Şahruxa sui-qəsddən bəhs edilərkən hürufilərin qrup halında qətli və yandırılması xüsusi vurğu altında verilir. Orta çağ tarixçilərinin bir-birindən əxz etdiyi, çağdaş araşdırıcıların isə onlara istinadən tarixi fakt kimi təkrarladığı məlumatların bir qismi hürufi mətnlərinə müraciət edərkən təsdiqini tapa bilmir və uyğunsuzluq təşkil edir. Belə ki, Şahruxa sui-qəsddə iki hürufinin (Əhməd Lor və Xacə İzəddin) adı tarix kitabları və araşdırmalarda daha çox yad olunur. R.Xiyavinin qeyd etdiyi kimi, Əhməd Lor hadisəsindən bir çox qaynaqlarda söz edilsə də, bunlar ümumiyyətlə eyni bir qaynaqdan köçürmə kimi görünür.[3] Bəzən Fəzlullahın qızının oğlu[4], bəzən bacısının nəvəsi[5] kimi təqdim olunan İzəddinin adı hürufilik mətnlərində, xüsusilə bu

---

[1] Səadət Şıxıyeva. "Cavidannamə"də Bakı ilə bağlı ezoterik interpretasiyalar, s. 400-403

[2] Fatih Usluer. Hurûfilik-İlk Elden Kaynaklarla Doğuşundan İtibaren, s. 24.

[3] روشن خیاوی. حروفیه (تحقیق در تاریخ و آراء و عقاید)، (تهران، نشر آیینه، 1378)، ص. 233.

[4] حبیب السیر، گردآوری، مقدمه و اضافات عبد الحسین نوایی (تهران: انجمن آثار و مفتخر رجال کتاب فرهنگی، 1379)، ص. 114؛ حسن بک روملو. احسن التواریخ، به کوشش:عبدالحسین نوائی (تهران: بنگاه ترجمه و نشر کتاب، 1349)، ص. 194؛ کیا، صادق. واژه نامه گرگانی، ص. 298.

[5] İsmail Aka. Mirza Şahruh ve Zamanı (1405-1447), s. 139; Hüsamettin Aksu. Amir Giyas al-Din Muhammed al-Astarabadi ve "İstivanama"si, s. 92; bax: Fatih Usluer. Hurûfilik-İlk Elden Kaynaklarla Doğuşundan İtibaren, s. 21.

sui-qəsd hadisəsindən təfərrüatlı bəhs edən və həmin hadisə ilə əlaqədar həbs edilən Əmir Qiyasəddinin məktubunda (*"Şamilnamə"*) yad olunmur və bu baxımdan onun şəxsiyyəti şübhə və sual doğurur. *"Şamilnamə"*də bu hadisə ilə bağlı Fəzlullahın nəvəsi Əmir Nurullahın və mətnin müəllifi Əmir Qiyasəddinin həbs olunması bildirilir. Qaynaqları tutuşdurmamız nəticəsində hürufi mətnlərində Fəzlullahın nəvəsi olaraq adı keçməyən Xacə İzəddinin əslində adı tarixə yanlış biçimdə yazılan Əmir Nurullah olması və orta çağ müəlliflərinin təhrifi nəticəsində onun adının tarix kitablarına yol tapmaması qənaətinə gəldik.

Şahruxa sui-qəsd hadisəsi zamanı həyatda olan Hafiz Əbrunun *"Zübdətül-təvarix"* adlı əsərində bu dövrdə bəzi hürufilərin, eyni zamanda Əhməd Lora yaxın bir qrup insanın həbs olunması, hətta yandırılması bildirilir.[1] Eyni məlumat Əbdurrəzzaq Səmərqəndi[2], Həsən bəy Rumlu[3], Mirxond[4], Xondəmir[5] və digərləri tərəfindən də bəzən eynilə, bəzən isə ixtisarla təkrarlanır. Halbuki bu hadisədən söz açan qaynaqların müqayisəli analizi fərqli qənaətlərə gətirdi: öncə də xatırlatdığımız kimi, İzəddin adına Fəzlullahın nəvəsi və ya qohumu olaraq ilkin hürufilik qaynaqlarında rast gəlinmir.

Qeyd etməliyik ki, sui-qəsd hadisəsindən bəhs edən, hətta həmin hadisələr cərəyan edən zaman həyatda olan tarixçilərin təhkiyə üsulundan onların heç birinin sui-qəsddə ittiham olunan hürufilərin məhkəməsində iştirak etmədiyi məlum olur. Orta çağ qaynaqlarının qarşılaşdırılması nəticəsində ilk olaraq Hafiz Əbrunun (öl.: 1430) bu hadisəni daha geniş təsviri, Əbdürrəzzaq Səmərqəndi, Həsən bəy Rumlu, Mirxond, Xondəmir və digərlərinin hadisəni ixtisarla və əsasən, Hafiz Əbruya istinadən nəqletmələri qənaətinə gəldik. Hafiz Əbrunun ifadə tərzindən isə onun bu

---

[1] حافظ ابرو، زبده التواریخ، ص. 919.

[2] کمال الدین عبدالرزاق سمرقندی. مطلع سعدین و مجمع بحرین، به اهتمام عبدالحسین نوایی (تهران: پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی، 1372)، جلد دوم دفتر اول، ص. 384.

[3] حسن بک روملو. احسن التواریخ، به اهتمام عبدالحسین نوایی (تهران: تهران، بنگاه ترجمه و نشر کتاب، 1349، ص. 194.

[4] میرمحمد بن سید برهان الدین خواوندشاه الشهیر بمیرخواند. تاریخ روضه الصفا (تهران: کتابفروشیهای خیام، 1339)، جلد ششم، ص. 693.

[5] XVI əsr Teymuri tarixçilərindən Xondəmir Hafiz Əbrudan fərqli olaraq, bu hadisəni qısa nəql edir və onların yandırılması məsələsində tərəddüdünü dolayısı ilə ifadə edir:
اما خواجه عضد الدین که دختر زاده مولانا فضل الله استرآبادی بود و جمعی دیگر از موافقان احمد لر، مقتول، بلکه محروق شدند.
(غیاث الدین محمد بن همام الدین الحسینی المدعو به خواندمیر . تاریخ حبیب السیر فی اخبار افراد البشر (تهران: کتابفروشی خیام، 1362)، ص. 617)
(Amma Mövlana Fəzlullah Astarabadinin qızının oğlu olan Xacə İzəddin və Əhməd Lorun bütün digər həmfikirləri öldürüldü, bəlkə də yandırıldı).

hadisəni digərlərindən eşitməsi bəlli olur. Bu tarixçi sui-qəsdin təşkilatçısının adının Məruf Kərxidən öyrənildiyini və onun hürufi Mövlana Məcdəddin Astarabadinin oğlu İzəd (عضد) olmasını bildirir[1]. Hafiz Əbrunun bu məhkəmə barədəki məlumatlarına əsaslanan sonrakı müəlliflərin bu adı İzəddin və Xacə İzəddin şəklinə salması diqqətimizi çəkdi. Ehtimal ki, bu ad Nurullahın adının ikinci qismi olan Allah[2] kəlməsinin sinonimidir. Çünki bəhsini etdiyimiz hadisə ilə əlaqədar olaraq həbs edilən və Hafiz Əbrunun bir təhrifindən qaynaqlanaraq adı tarix kitablarına düşməyən Fəzlullahın nəvəsi[3] Əmir Nurullah olmuşdur.

Hafiz Əbrunun *"Zübdətut-təvarix"*i ilə hürufi qaynağı *"Şamilnamə"*ni qarşılaşdırmamız bir sıra ifadə və münasibətlərin səsləşməsini və eyni hadisədən bəhs edildiyini üzə çıxardı. Hafiz Əbrunun həbs olunan hürufilərə (onun təqdimində bunlar İzəd və sayı açıqlanmayan hürufilərdir) məhkəmə qurulması, dövlət adamlarının (*"ərkan"*) o məhkəmədə iştirakı, hürufilərin uzun-uzun nitqlərlə görüşlərini anlatması, bu sui-qəsd hadisəsi ilə əlaqənin inkarı barədə söylədikləri Əmir Qiyasəddinin məktubundakı qeydlərlə səsləşməkdədir. *"Zübdətüt-təvarix"*də Şahruxa sui-qəsd hadisəsi ilə bağlı həbs edilərək mühakimə olunduğu bildirilən və adı açıqlanmayan hürufi bu ittihamı "böhtan" adlandırır[4]. *"Şamilnamə"*də eyni hadisə ilə bağlı həbs edildiyi məlum olan Əmir Nurullah da məhkəmədə "bu sözün onların haqqında deyilmiş yalan və böhtan olduğunu"[5] deyir və ittihamı rədd edir.

*"Zübdətüt-təvarix"*də bəzi hadisələrin nəqli isə *"Şamilnamə"* ilə ziddiyyət təşkil edir. Məsələn, "ما چند کس این اندیشه کرده بودیم که قصد بندگی حضرت کنیم" ("Biz bir neçə şəxs Həzrətə (Şahrux nəzərdə tutulur – S.Ş.) sui-qəsd etməyi düşünmüşdük")[6] iddiası məktubda deyilənlərlə təzad təşkil edir. Belə ki, *"Şamilnamə"*də Əmir Nurullah onları ittiham edənlərə deyir:

اگر گناه فرزندی مولانا فضل الله ج ه ثابت است سر تراشیدام (تراشیده ام) و ناخن گرفته و وضو ساخته و شهید شدن آمده ام تقصیر مکنید.

---

[1] حافظ ابرو. زبده التواریخ، ص. 916.

[2] ایزد (Allah) və عضد (yardımçı) sözləri yazılış baxımından fərqli olsa da, tələffüz etibarilə, demək olar ki, eynidir: İzəd.

[3] Bəzən oğlu

[4] *حافظ ابرو*. زبده التواریخ، ص. 918.

[5] Y.Ajənd bu sözlərin Mövlana Məruf Xəttata aid olduğunu deyirsə də (یعقوب آژند. حروفیه در تاریخ، ص. 77)، mətni diqqətlə təhlil etdikdə bu sözlərin adı açıqlanmayan hürufiyə aidiyyəti məlum olur.

[6] *حافظ ابرو*، زبده التواریخ، ص. 918.

امیر فیروزشاه در فرمود که گناه این نیست گناه آنست که شما کس فرستاده اید و (کذا) قصد میرزا که کرده اید[1] .

*(Əgər Mövlana Fəzlullah c.h.-ın bir övladının suçu sübut olunarsa, başımı taraş etmişəm, dırnaqlarımı kəsmişəm, abdəst almışam və şəhid olmağa gəlmişəm, (daha boş yerə) mühakimə etməyin.*[2]

*Əmir Firuzşah buyurdu ki, günah bu deyil, günah odur ki, siz bir şəxs yolladınız və (beləliklə) Mirzəyə qəsd etdiniz).*

Göründüyü kimi, mühakimə edənlərin nəzərində hürufilərin günahı onların məzhəb mənsubiyyətləri və dini-fəlsəfi görüşlərində deyil, siyasi fəaliyyəti, qiyam və qisas cəhdlərində idi.[3]

Ümumiyyətlə, Əmir Nurullah bu sui-qəsddə iştirakı qətiyyətlə rədd edir. *"Zübdətüt-təvarix"*də yer alan *"Əhməd Lor bizi qabaqladı"* (این احمد لر در این اندیشه بر ما سبقت نمود)[4] ifadəsi də dolayısı ilə eyni anlamı daşıyır. Maraqlıdır ki, Əhməd Lor öncə şirvanlı Əmir Mənuçehr bin Əmir Şeyxin xidmətində olmuş[5], sonra Xorasana gəlib burada məskunlaşmışdı. Xorasanda isə təriqətin başçısı Əmir Nurullah deyil, Seyid İshaq idi...

Şahruxa sui-qəsddə ittiham olunan hürufilərin odda yandırılması barədə ilk öncə orta çağ tarix kitablarında, daha sonralar çağdaş araşdırmalarda təkrarlanmaqla deyilənlər ciddi tədqiqata möhtacdır və qənaətimizcə, tarixi həqiqəti əks etdirmir. Belə ki, həbs olunan hürufilərin şəhərdən çıxarılması ilə bağlı orta əsrlər tarix kitabları və hürufilik mətnlərini müqayisə edərək belə bir nəticəyə gəldik ki, bu məsələdə şayiələr tarixi həqiqətin yerini almışdır. Çünki eyni hadisəni Əmir Qiyasəddin fərqli şəkildə təsvir edir:

بطرف سمرقند در یوم ایلجی(ایلچی) فرستادند و بندهاء ما را سنگین کردند تا حدّی که هیچ بشری نشان نمی‌داد بندی بدان گرانی و بطرف سمرقند روانه ساختند هر کس سخنی میگفتند بعضی میگفتند که شما را در آب آمو خواهند انداخت بعضی میگفتند که در راه بنوعی دیگر خواهند کشت بعضی میگفتند که دز آن ساعة که بسمرقند برسید در دم شما را الوق بک خو(ا)هد کشت[6].

---

[1] Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurûfi'nin Oğluna Ait Bir Mektup," s. 39-40.

[2] hərfən: günahlandırmayın

[3] Onlar Kara Yusiflə dostluqları, Miranşahı qətlə yetirən qılıncı öpdükləri və s. üçün də suçlu bilinirlər. Göründüyü kimi, bu ittihamlar da siyasi xarakterlidir. Bundan başqa, bu faktlar öncə də bilinən gerçəkliklərdən idi. Amma bu "günah"lar Şahruxa sui-qəsddən sonra fakt kimi istifadə olunur.

[4] *حافظ ابرو.* زبده التواریخ، ص. 918.

[5] یعقوب آژند. حروفیه در تاریخ، ص. 77.

[6] Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurûfi'nin Oğluna Ait Bir Mektup," İstanbul

*(Bir gün Səmərqənd tərəfə elçi göndərdilər. Bizim zəncirlərimizi o qədər ağır etdilər ki, heç bir insan o ağırlıqda zəncir görməmişdir və Səmərqəndə yola saldılar. Hər kəs bir söz deyirdi ki, sizi Amunun (Amu-dərya – S.Ş.) suyuna atacaqlar, bəzi(ləri) deyirdilər ki, yolda bir başqa bir şəkildə öldürəcəklər, bəzi(ləri) deyirdilər ki, Səmərqəndə çatdığınız zaman Uluğ Bəy dərhal sizi öldürəcək).*

Bu hadisələrin canlı şahidi və iştirakçısı olan Əmir Qiyasəddin, göründüyü kimi, onların Heratdan çıxarılıb Səmərqəndə göndərilərkən haqlarında bir çox şayiələrin yaranıb yayıldığını bildirir. Hafiz Əbru isə hadisələrin sonrakı inkişafından bəhs edərkən tarixi gerçəkliyi deyil, şayiələri qələmə alır. Şahruxa sui-qəsd edənlərin aqibətinin çox faciəli olması və yandırılması xəbəri bəlkə də siyasi dairələrin marağına uyğun olduğundan o dairələrə yaxın tarixçinin belə bir məlumatı fakt kimi qələmə alması təsadüf deyildi. Belə ki, sui-qəsd hadisəsindən sonra siyasi dairələrin münasibətində bir neçə maraq doğuran cəhət var:

1. Mətndən məlum olur ki, xalq arasında qarışıqlığa səbəb ola biləcəyindən ehtiyatlanıldığına görə Şahrux yaralı olduğu halda kəcavəyə oturdulmur və at üstündə o məkandan uzaqlaşmalı olur. İ.Akanın doğru müşahidə etdiyi kimi, "bundan Heratda bir fitnə çıxara biləcək gücdə qüvvələrin və bəlkə də dini təşkilatların mövcud olması anlaşılır". [1]

2. İttiham etdikləri hürufiləri nəinki qətl etmir, hətta məhkəmənin davamının belə Heratda olmasını istəmir və onları şəhərdən çıxararaq, Səmərqəndə göndərirlər.

3. Onların faciəli ölümü barədə şayiələr yayılır.

Bu məsələnin başlıca mənfi cəhəti hürufilik tarixindəki bir sıra hadisələr kimi bu sui-qəsd hadisəsi ilə bağlı gerçəklərin də təhrif olunması və yüzillər boyunca saxtalaşdırılması oldu. Maraqlıdır ki, atasının israrına baxmayaraq, Uluğ bəy onları edam etdirmir, "əgər günahları varsa, özünüz cəzalandırın. Mən nə zindançıyam, nə də cəllad"[2] cavabını verir.

Bütün bu cəhətlər, həqiqətən, hürufilərin xalq arasında və siyasi çevrələrdə nüfuz sahibi olduğunu göstərir.

Qeyd etməliyik ki, Əhməd Lor adı *"Şamilnamə"* boyu bir dəfə belə xatırlan-

Ünversitesi Edebiyat Fakültesi Şarkiyat Mecmuası, C. I, Ankara, 1956, s. 49.

[1] İsmail Aka. Mirza Şahruh ve Zamanı (1405-1447), s. 138.

[2] "من نه جلّادم و نه زندان بان".
(Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurûfi'nin Oğluna Ait Bir Mektup," s. 54)

mır. Hafiz Əbrunun əsərində yer alan "Əhməd Lor bizi qabaqladı" qeydi də əslində bu sui-qəsdin Əmir Nurullahın təşkilatçılığı ilə olmadığını dolayısı ilə təsdiqləyir. Bu qeyd və böhtan barədə istər tarix kitabı, istərsə də hürufilik mətnində deyilənlər bir çox məsələyə işıq salır. Zənnimizcə, həqiqətən, Əmir Nurullah və Əmir Qiyasəddin bu sui-qəsd hadisəsində iştirak etməmişlər. Eləcə də Əmir Qiyasəddinin öz həmməsləkinə ünvanlandığı məktubunda açıq ifadə etdiyi şikayətindən[1] onların Şahruxa sui-qəsdi planlaşdırıb həyata keçirmək istəyənlərin kim olmasını bilsələr belə, müəyyən səbəblərdən susma məcburiyyətində qaldıqları məlum olur.

## *Nəticə*

Göründüyü kimi, hürufilik təliminin tarixinin bir sıra məqamları (antifeodal xarakterliliyi, Əmir Teymurun Təbrizə yürüşünə qarşı olaraq yaranması, Şahruxa sui-qəsddən sonra qətli-am və odda yandırılmalar və s.) barədə araşdırmalarda yaradılan təsəvvürlər tarixi gerçəkliyi əks etdirmir və hürufilik qaynaqlarında təsdiqini tapa bilmir. Orta çağ tarix əsərlərindən çağdaş araşdırmalara yol tapan bu mülahizələrdən hürufilik tarixinin qaranlıq səhifələri üzərinə daha qatı fikir dumanı çökmüşdür. Bəzi məsələləri analiz etmədən faktların təkrarına meyllilik, tarixi təhriflərin fakt məqamında təqdimi isə yanlışlıqların artması və özünə dərin kök

---

[1] Əmir Qiyasəddin *"Şamilnamə"*də bəzi hürufilərin onların taleyinə laqeydliyindən şikayətlənir:

این کار دیگر که عن قریب بذات قیام در نمودند از مشرق و مغرب عالم هر جا که درویشی از درویشان بود او(رو) بدان طرف نهاده بعلم و حال و مال و منال و تیغ و تبر کوشش می‌نمودند از مرد و زن خصوصا اهالی و سر آمد درویشان همچو ان سیّد شریف و غیره که گفتن آن طولی دارد عجب که قصّه منعکس واقع شد و هیچکس یاد از مخدوم و مخدوم زاده خود و امام زمان خود نکرد .

(Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurûfi'nin Oğluna Ait Bir Mektup," s. 38)

*(Bir də bu iş qiyam kimi göründüyündən dünyanın şərq və qərbində hər yerdə ki, (hürufi) dərvişlərdən bir dərviş vardı, üzünü o (biri) tərəfə tutdu. Kişi və qadınlar, xüsusilə əhali və o Seyid Şərif və qeyriləri kimi dərvişlərin başçıları ki - bunun söylənməsi uzun çəkər – elmlə, (öz) halı ilə, var-dövləti, qılınc və baltasıyla çalışdı, Qəribədir ki, (burada) inikasını tapan hadisə baş verəndə (heç kəs) öz Məxdum və Məxduməzadəsini, öz imami-zamanını yada salmadı).* Müəllifin daha sonra nəql etdiklərindən də hürufi dərvişlərinin bir bəhanə ilə uzaqlaşması, öz həyat qayğıları ilə məşğul olması məlum olur.

Ümumiyyətlə, Əmir Qiyasəddinin şikayət dolu sözlərindən bu hadisə ilə əlaqədar yalnız ikisinin (Əmir Nurullah və müəllifin özü) həbs olunaraq, beş il əziyyət çəkmələri aydın olur. Seyid Şərifin adının iki dəfə çəkilməsi və ona mənfi münasibətin açıq ifadəsindən Şahruxa uğursuz sui-qəsd hadisəsində hürufiliyin bu tanınmış nümayəndəsinin də iştirakının olması, sonda isə onun mümkün qədər kənara çəkilməsi qənaəti hasil olur. Belə ki, Əmir Qiyasəddin açıq şəkildə onu ittiham edir. (Onların məktubuna verilən cavab haqqında bax: Abdülbaki Gölpınarlı. "Fazlullah-ı Hurûfi'nin Oğluna Ait Bir Mektup," s. 38)

salaraq şaxələnməsinə münbit şərait yaratmışdır.

Bu məqalədə yalnız siyasi tarix kontekstində bu təlimlə bağlı bir sıra yanlışlıqlar və natamamlıqları təhlilə cəlb etdik. Əslində isə hürufilik təliminin ayrı-ayrı şəxsiyyətləri, məsələn, Fəzlullahın ailə üzvləri, onların taleyi, hürufiliyin ən tanınmış təmsilçisi Seyid İmadəddin Nəsiminin həyatı və şəxsiyyəti ilə bağlı bir çox ənənəviləşmiş, lakin tarix gerçəkliyi əksetdirmə baxımından mübahisəli fikirlər də mövcuddur. Bu kimi məsələlərin təhlili və xüsusi araşdırması isə fəlsəfi və ədəbi düşüncə tarixi ilə bağlı bir sıra mübahisəli və natamam öyrənilmiş mülahizələrə, eləcə də gerçəkliyi əks etdirməyən təhrifli təsəvvürlərə aydınlıq gətirə bilər.

## *Ədəbiyyat*

**Azərbaycan dilində:**


1. Araslı H. Seçilmiş əsərləri. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1973.

2. Quluzadə, M. Böyük ideallar şairi (Bakı: Gənclik, 1973).

3. Səfərli, Ə., Yusifov, X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, Bakı: Ozan, 1998.

4. Şıxıyeva, S. "Cavidannamə"də Bakı ilə bağlı ezoterik interpretasiyalar," Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı" (Sovet İttifaqı qəhrəmanı, akademik Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpoziumun materialları (Bakı, 7-8 may 2012-ci il) (Bakı: Elm, 2012), s. 400-403.

5. Şıxıyeva, S. "Hürufi müəlliflər Qaraqoyunlular haqqında," Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları" (akad. V. Məmmədəliyevin 70 illiyinə həsr olunmuş konfransın materialları) (Bakı, 27-28 iyun 2013), s. 429-443.

6. Şıxıyeva, Səadət. "Hürufilərin siyasi mübarizə tarixindən," Dil və ədəbiyyat, 3 (1998), s. 126-129.

7. Şıxıyeva, Səadət. "Hürufiliyin tarixi ilə bağlı bir sıra qəlibləşmiş yanlışlar," Türk dünyası: dünəni və bu günü (beynəlxalq elmi konfrans), Tezislər (Bakı, 23-24 may, 2011), s. 82-87

8. Şıxıyeva, Səadət. "İslami mühit və hürufilikdə etnik düşüncənin təzahürləri (II)," AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq institutunun "Elmi araşdırmalar"ı, 1-4 (VIII buraxılış) (2006), s. 547-573.

**Türk dilində:**

9. Aka, İsmail. Mirza Şahruh ve Zamanı (1405-1447) (Ankara: Türk Tarih Kurumu Yayınları), 1994.

10. Aksu, Hüsamettin. Amir Giyas al-Din Muhammed al-Astarabadi ve "İstivanama"si (Doktora Tezi), İstanbul Üniversitesi Edebiyat Fakültesi, İstanbul, 1981.

11. Atıcı, Ayşe. Karakoyunlu Hükümdarlarından Cihanşah ve Dönemi (Siyaset-Teşkilat-Iktisad-Din-Kültür) 1438–1467 (Doktora Tezi), Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2010

12. Ayan, H. Nesimi. Hayatı, Edebi Kişiliği, Eserleri ve Türkçe Divanının Tenkitli Metni, (Ankara: Türk Dil Kurumu Yayınları, 2002), I. Cilt.

13. Gölpınarlı, Abdülbaki. "Fazlullah-ı Hurûfi'nin Oğluna Ait Bir Mektup," İstanbul Ünversitesi Edebiyat Fakültesi Şarkiyat Mecmuası, I (1956).

14. Gölpınarlı, Abdülbaki. "Fazlullah-ı Hurûfinin Vasiyyat-nama'si veya Vasayası," İstanbul Ünversitesi Edebiyat Fakültesi Şarkiyat Mecmuası, II (1958).

15. Hurufilik Bilgisi. Ferişteoğlu Abdülmecid Külliyatı. Hazırlayanlar: Fatih Usluer, Özer Şenödeyici, İsmail Arıkoğlu (Ankara: Gece Kitaplığı, 2014).

16. Hasan-i Rumlu. Ahsenü't-Tevarih. Çeviren: Mürsel Öztürk (Ankara: Türk Tarih Kurumu Yayınları, 2006).

17. Hurufilik Metinleri Katalogu. Hazırlayan: Abdülbaki Gölpınarlı (Ankara: Türk Tarih Kurumu Basımevi, 1989).

18. Latifi. Tezkiretüş-Şüara ve Tabsiratün-Nuzama (İnceleme-Metin). Hazırlayan: Ridvan Canım (Ankara: Atatürk Kültür Merkezi Başkanlığı, 2000).

19. Minorsky, Vladimir. "Kara Koyunlu Cihan Şah ve Şiirleri," Çeviren: Mine Erol, Selçuklu Araştırmaları Dergisi, II (1970), s. 153-180.

20. Seyyid Nesimi Divanından Seçmeler. Hazırlayan: Kemal Edib Kürkçüoğlu (Ankara: Kültür və Turizm Bakanlığı Yayınları, 1987).

21. Sümer, Faruk. Karakoyunlular. Karakoyunlular (Ankara: Türk Tarih Kurumu Yayınları, 1984).

22. Şıhıyeva, Seadet. Hurufi Ayaklanmaları, Türk Tarih Kurumu, XVI. Türk Tarih Kongresi, 20-24 Eylül 2010, Ankara, s. 151-152.

23. Usluer, Fatih. Hurûfilik-İlk Elden Kaynaklarla Doğuşundan

İtibaren (İstanbul: Kabalcı Yayınları, 2009).

24. Usluer, Fatih. “Hurufilikte Rüya Tabirleri,” Millî Folklor, 90 (2011), s. 134-145.

25. Yüksel, Musa Şamil. Timurlularda Din-Devlet İlişkisi (Ankara: Türk Tarih Kurumu Basımevi, 2009).

**Rus dilində:**

26. Бартольд, Василий Владимирович. Сочинения. (Москва: Наука, 1964), т. 2, часть 2.

27. Кули-заде, Зумруд. Хуруфизм и его представители в Азербайджане (Баку: Элм, 1970).

28. Петрушевский, Илья Павлович. Ислам в Иране в VII-XV веках (Ленинград: Издательство Ленинградского университета, 1966).

**Avropa dillərində:**

29. Huart, Clément. Textes persans relatifs à la secte des Houroûfîs (Leyden-London, 1909).

30. Mir-Kasimov, Orkhan. “The Hurūfī Moses: An Example of Late Medieval ‘Heterodox’ Interpretation of the Qur’an and Bible, Ecole Pratique Des Hautes Etudes,” Journal of Qur’anic Studies, Edinburgh University Press, 10 (2008).

**Şərq dillərində:**

31. آژند، یعقوب. حروفیه در تاریخ (تهران: نشر نی، 1369).

32. امیرغیاث الدین محمد بن حسین بن محمد الحسینی الاسترابادی. استوانامه، بتصحیح و اهتمام حسام الدین آقصو(استانبول،1981).

33. اولدوز، حسین. "حروفیه و نسیمی،" دیوان نسیمی (تبریز: موسسه انتشارات یاران ، ب.ت).

34. براون، ادوارد. "نوشته های حروفی ، ترجمه عطاالله حسنی،" فرهنگ ایران زمین (تهران، 1365)، جلد 26، ص.206-244.

35. توفیق، رضا. "پژوهشی در اندیشه های حروفیه،" زندگی و اشعار عمادالدین نسیمی، به کوشش یدالله جلالی پنداری (تهران: نشر نی، 1993).

36. *حافظ ابرو*، زبده التواریخ. تصحیح: *سیدکمال حاج سیدجوادی* (تهران: نشر نی، 1372).

37. حسن بک روملو. احسن التواریخ، به کوشش: عبدالحسین نوائی (تهران: بنگاه ترجمه و نشر کتاب، 1349).

38. خیاوی، روشن. حروفیه (تحقیق در تاریخ و آراء و عقاید) (تهران: نشر آیینه، 1378).

39. رجال کتاب حبیب السیر، گردآوری، مقدمه و اضافات عبد الحسین نوایی (تهران: انجمن آثار و مفتخر فرهنگی، 1379).
40. ریتر، هلموت. "آغاز فرقه حروفیه،" فرهنگ ایران زمین، (تهران، 1341)، جلد دهم، ص. 319-396.
41. سمرقندی، کمال الدین عبدالرزاق . مطلع سعدین و مجمع بحرین، به اهتمام عبدالحسین نوایی (تهران: پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی، 1372)، جلد دوم دفتر اول،
42. الشیبی، کامل مصطفی. تشیع و تصوف تا آغاز سده دواز دهم هجری، ترجمه علی رضا ذکاوتی قراگوزلو (تهران، موسسه انتشارات امیر کبیر، 1378).
43. العسقلانی، *ابن حجر. انباء* الغمر بابناء العمر، تحقیق و تطیق حسن حبشی (القاهرة، 1994)، الجزء الثانی.
44. غیاث الدین بن همام الدین الحسینی خواند امیر، تاریخ حبیب السیرفی اخبار افراد بشر (تهران: *انتشارات* کتاب فروشی های خیام، 1362)، جلد سوم.
45. فضل الله استرآبادی. جاودان نامه کبیر (م.ک. علی امیری، فارسی، شماره 920).
46. کیا، صادق. واژه نامه گرگانی (تهران: انتشارات دتنشگاه تهران، 1330 ه).
47. مجموعه رسائل حروفیه (لیدن، 1909).
48. محمد بن خاوند شاه بلخی معروف به *میرخواند* . *روضة الصفا (تهران: انتشارات* کتاب فروشی های مرکزی خیام و پیروز، *1339)*، ج. 6.
49. میر فطروس، علی. جنبش حروفیه و نهضت پسیخانیان (نقطویان) (تهران: انتشارات بامداد، 1327)
50. نصر الله نافجی. خوابنامه (Biblioteca Vaticana Persiano 17).

**İnternet resursları:**

51. http://www.e-tarih.org/sayfa.php?sfid=298

**Saadat Shikhiyeva**

***Hurufism History:***
***Traditional Distortions, Forgotten Truths...***
*(abstract)*

*There are considered some traditional distortions in the study of Hurufism which occupies an important place in the history of Eastern philosophical thought, in the given article. So far some aspects of the activities, aims and tasks of Hurufism as the philosophical doctrine and the political movement, have been presented in a distorted form. Among the existing falsifications takes place the study of the beginning of legal activity of Hurufism as a philosophical and religious doctrine, attempts to enter into an alliance with political power during the life of Fazlullah and after his execution, etc. There were revised the aforementioned distortions, the sources that caused misinformation and misinterpretations of*

*historical events, etc. in this article. There were also made attempts to reveal the true historical facts. An attention was paid to clarifying some contentious issues based on the texts of Hurufism.*

*In addition, the article explored in detail the facts about the Hurufite uprisings and defined the boundaries of distortion and reality. Particularly, the confusion over the conspiracy against Shahrukh is analyzed in detail. As a result of this research, it was found out that not only events, causes and consequences related to the history of Hurufism, but also some facts in sources and studies were falsified. A special attention was paid to the fictional "historical persons" mentioned in medieval historical books and modern researches.*

***Keywords:*** *hurufism, teaching, history, insurrection, distortion, reality*

**Саадат Шихиева**

## *История хуруфизма:*
## *традиционные искажения, забытые истины...*
*(резюме)*

*В статье рассматриваются некоторые традиционные искажения в изучении хуруфизма, занимающего важное место в истории восточной философской мысли. До сих пор некоторые аспекты деятельности, целей и задач хуруфизма, как философского учения так и политического движения, были представлены в искаженной форме.*

*Среди существующих фальсификаций также занимает место изучение начала легальной деятельности хуруфизма как философско-религиозного учения, попытки войти в союз с политическими силами при жизни Фазлуллаха и после его казни и т.д. В данной статье были пересмотрены вышеупомянутые искажения, источники, ставшие причиной дезинформации и неверных толкований исторических событий и т. д., также сделаны попытки выявления истинных исторических фактов. Особое внимание было уделено разъяснению некоторых спорных вопросов на основе текстов хуруфизма.*

*Кроме того, в статье детально исследованы факты о хуруфитских восстаниях и определены границы искажения и реальности, и в частности, подробно анализированы путаницы в связи с заговором против Шахруха. В результате этого исследования выяснилось, что не только был искажен ход событий, причин и последствий, связанных с историей хуруфизма, но и фальсифицированы некоторые факты в источниках и исследованиях, а также особое внимание было уделено вымышленным “историческим лицам”, упомянутым в средневековых исторических книгах и современных исследованиях.*

***Ключевые слова:*** *хуруфизм, учение, история, восстание, искажение, реальность*